RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 38 (8354) CÜMƏ AXŞAMI, 20 fevral 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İlham Əliyevin ibrətamiz tarix dərsi və diplomatiya mesajı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ardıcıl və məqsədyönlü siyasəti nəticəsində bütün istiqamətlər üzrə hərtərəfli şəkildə inkişaf etmiş müstəqil dövlətimiz həm də müasir tarixi epoxanın ən geniş dialoq məkanına çevrilmişdir. Birləşmiş Millətlər Təşkilatı, UNESKO səviyyəsində keçirilən sivilizasiyalararası, mədəniyyətlərarası, dinlərarası dialoqlara həsr edilmiş beynəlxalq səviyyəli möhtəşəm zirvə toplantıları, sammitlər, forumlar, simpoziumlar ölkəmizdə dünyanın, regionun, ölkələrarası münasibətlərin, qlobal problemlərin geniş və işgüzar şəkildə müzakirəsinə meydan açmışdır.**

Mövzusundan, əhatə dairəsindən asılı olmayaraq Prezident İlham Əliyevin bütün beynəlxalq miqyaslı tədbirlərdə söylədiyi giriş nitqləri həmin forumun ana xəttini, əsas istiqamətini, ən mühüm hədəflərini müəyyən edən bələdçiyə çevrilmişdir. Prezident İlham Əliyevin nümayiş etdirdiyi "konspektsiz" sərbəst nitq, analitik təhlil mədəniyyəti, problemə kompleks yanaşmaq istedadı, ümumiləşdirmə və proqnozlaşdırmaq məharəti dövlət başçımızın dünya liderləri sırasında fərqli bir təfəkkür sahibi kimi qəbul olunmasını şərtləndirmişdir.

Bu baxımdan ölkəmizin rəhbəri İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirdiyi görüşlər, etdiyi çıxışlar, apardığı danışıqlar, iştirak etdiyi panel müzakirələri müstəqillik epoxasında Azərbaycan Respublikasında formalaşmış, ənənəyə çevrilmiş dialoq mədəniyyətinin növbəti təntənəsidir. Münxen Təhlükəsizlik Konfransı zamanı Almaniyanın Şərqi Biznes Assosiasiyasının baş icraçı direktoru Mixael Hamsın səsləndirdiyi aşağıdakı fikirlər Prezident İlham Əliyevin beynəlxalq əhəmiyyətli məsələlərin müzakirəsində nümayiş etdirdiyi böyük məharəti dolğun şəkildə ifadə edir: *"Sizinlə burada - Münxen Təhlükəsizlik Konfransında görüşmək bizim üçün böyük şərəfdir. Mən son beş-altı ildə bu konfransda iştirak etmişəm və hər dəfə Sizin çıxışlarınız, baxışlarınız mənə çox müsbət təsir bağışlayıb... Yəni ikitərəfli münasibətlərlə yanaşı, region və beynəlxalq düzənlə bağlı baxışlarımızı nəzərdə tuturam"*.

Prezident İlham Əliyevin Azərbaycanda çoxcəhətli dialoqlar üçün formalaşdırdığı mühit beynəlxalq ictimaiyyət tərəfindən də yüksək qiymətləndirilmişdir. Münxen Təhlükəsizlik Konfransı çərçivəsində dövlətimizin başçısı ilə görüşü zamanı Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi Vladimir Norovun dediyi aşağıdakı sözlər ölkəmizin dünyadakı ən mühüm dialoq məkanlarından biri olmasının beynəlxalq səviyyədə etiraf edilməsinin əyani ifadəsidir: *"Deyə bilərəm ki, bu gün Azərbaycan müşahidəçi ölkələr üçün nümunə olaraq dialoq üzrə ən fəal tərəfdaşlardan biridir"*.

Prezident İlham Əliyevin 56-cı Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Ermənistanın Baş naziri Nikol Paşinyanla panel müzakirələrində göstərdiyi böyük siyasi mədəniyyət və yüksək diplomatik məharət ölkə rəhbərimizin dialoq prosesində, problemlərə dəqiq və konseptual yanaşma qabiliyyətinin və qətiyyətli mövqeyinin daha bir parlaq təzahürüdür.

Mövzusu və mahiyyəti etibarilə özünəməxsus siyasi gərginliyə malik olan bu müzakirə prosesində əvvəldən axıra qədər nümayiş etdirdiyi sərbəstlik, analitik məntiqi dəyərləndirmə, zəngin tarixi-informativ bilik, müstəqil düşüncə və aydın mövqe Prezident İlham Əliyevin beynəlxalq ictimaiyyətin mötəbər nümayəndələri qarşısında ölkəmizə qazandırdığı çox mühüm uğurdur.

Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən panel müzakirəsi uzun illərdən bəri bağlı qapılar arxasında keçirilən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ müzakirələrinin ilk dəfə açıq şəkildə dünya ictimaiyyətinə bütün reallıqları ilə təqdimatı platforması kimi mühüm əhəmiyyətə malikdir. Prezident İlham Əliyev yaranmış fürsətdən Dağlıq Qarabağ problemini bütün reallıqları ilə birlikdə dünya ictimaiyyətinə çatdırmaq üçün məharətlə istifadə etmişdir. Panel müzakirələri prosesində dövlət başçımızın Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar məsələyə çoxaspektli mövqedən siyasi, tarixi, hüquqi, diplomatik aspektlərdən baxaraq, bütün istiqamətlərdə yüksək professionallıq nümayiş etdirməsi həm özünün, həm də ölkəmizin beynəlxalq nüfuzunun daha da artmasında mühüm tarixi addımlardan birinə çevrilmişdir.

*Ardı 3-cü səh.*

# Azərbaycan Prezidenti İlham Əliyev İtaliyaya dövlət səfərinə gedib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da İtaliya Respublikasına dövlət səfərinə gedib.**



AZƏRTAC xəbər verir ki, Romanın "Fiumicino" Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı İtaliya Xarici İşlər Nazirliyinin Dövlət Protokol İdarəsinin rəisi İniqo Lambertini, bu ölkənin Azərbaycandakı səfiri Auqusto Massari və digər rəsmi şəxslər qarşıladılar.

# Prezident İlham Əliyev Romada dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsini ziyarət edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Romadakı məşhur "Villa Borghese" parkında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsini ziyarət edib.**



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva abidənin önünə gül dəstələri qoydular.

Qeyd edək ki, bu abidə "Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 dekabr tarixli sərəncamına əsasən ucaldılıb. Həmin sərəncama əsasən, Nizami Gəncəvinin yubileyinə həsr edilmiş silsilə tədbirlər çərçivəsində Heydər Əliyev Fondunun dəstəyi ilə 2012-ci ilin aprelində abidənin açılışı olub.



◆ Müəllifi İlham Əliyevdir

# Gədəbəydə «ASAN xidmət» modeli



## Prezident İlham Əliyevin mütərəqqi islahatlarının real nəticəsi olaraq yaradılan Operativ Xidmət Mərkəzi vətəndaş məmnunluğunun və səmərəli fəaliyyətin uğurlu formuludur

Prezident İlham Əliyev "Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Dövlət qulluqçuları hər zaman vətəndaşların xidmətində olmalıdırlar" fikrini bəyan edərək bunu prinsip kimi dövlət idarəçilik sisteminin əsas prioriteti olaraq diqqətə çatdırıb.

Dövlət başçısının bu məramı, həmçinin vətəndaş məmnunluğunun və şəffaflığın təmin olunması ilə bağlı mütəmadi verdiyi tapşırıqlar bütün dövlət qurumlarında, o cümlədən, yerli icra hakimiyyəti orqanları qarşısında da mühüm vəzifələr müəyyənləşdirib.

### İlk təşəbbüs Gədəbəydən gəldi

Prezident İlham Əliyevin son illərdə daha geniş miqyas alan mütərəqqi islahatları nəticəsində idarəçilik aparatında fəaliyyət keyfiyyətinin yüksəldilməsi, xidmətdən yararlanmanın asanlaşdırılması və vətəndaş məmnunluğunun artırılması məqsədilə mühüm tədbirlər həyata keçirilir. Bu innovativ yeniliklər nəticəsində artıq real nəticələr də əldə edilir.

Dövlət başçısının yerli icra hakimiyyətləri orqanları qarşısında qoyduğu tələblər - *vətəndaşların müraciətlərinə operativ baxılması, onların qəbulu və dinlənilməsi prosesinin təkmilləşdirilməsi, hər bir müraciətə həssas münasibət göstərilməsi, müraciətlərin mahiyyəti üzrə qərarların qəbulu, eləcə də işgüzar mühitin yaradılması, hesabatlılıq, şəffaflıq* kimi prinsiplər nəticə etibarilə rayon icra hakimiyyətlərinin fəaliyyətinin daha da səmərəliləşdirilməsini, effektivliyin artırılmasını və vətəndaşların etimad ünvanına çevrilməsini təmin edəcək.

Ölkə Prezidentinin bu istiqamətdəki tapşırıqları və tövsiyələri Gədəbəydə fəaliyyət prioriteti kimi qəbul edilib. Rayon icra hakimiyyəti başçısının aparatı tərəfindən proses dərindən öyrənilib, yerli spesifika diqqətlə araşdırılıb, bu sahədə mövcud olan beynəlxalq təcrübə mənimsənilib.

2019-cu ilin fevral ayının 15-dən "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin tələblərinə uyğun olaraq rayon icra hakimiyyətinin inzibati binasında vətəndaşlara rahat, daha məsuliyyətli, aşkarlıq şəraitində və vaxt itkisi olmadan xidmət göstərmək üçün Operativ Xidmət Mərkəzi fəaliyyətə başlayıb. Onu da xüsusi vurğulayaq ki, bu təsisat yerli icra hakimiyyəti orqanları arasında ilk dəfə olaraq məhz Gədəbəydə yaradılıb.

*Ardı 6-cı səh.*

◆ Zəlzələ bölgəsindən reportaj

# "Harayımıza Mehriban xanım çatdı"

## Zəlzələdən sonra Heydər Əliyev Fondu tərəfindən Şamaxıda 35 fərdi ev tikilib, 12 evdə təmir-bərpa işləri aparılıb

**Keçən il fevralın 5-də baş vermiş dağıdıcı zəlzələdən sonra Şamaxının Şirvanşah İbrahim küçəsində yaşayan Gülməmmədovlar ailəsinin də evi qəzalı vəziyyətə düşmüşdü. Lakin çox keçmədən onun yerində Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırığı ilə Heydər Əliyev Fondu tərəfindən 3 otaqlı yeni ev tikildi. İndi ailə əvvəlkindən də geniş və yaraşıqlı olan həmin evdə yaşayır.**



### Prezidentin çevik reaksiyası

Ötən il fevralın 5-6-da baş vermiş zəlzələlər nəticəsində Şamaxı, İsmayıllı və Ağsu rayonlarında fərdi evlər qəzalı vəziyyətə düşmüş, bir sıra sosial və infrastruktur obyektlərinə ziyan dəymişdi. Prezident İlham Əliyevin tapşırıqlarına əsasən təbii fəlakətdən dərhal sonra görülən təxirəsalınmaz tədbirlər nəticəsində adıçəkilən rayonlarda mühəndis-kommunikasiya təminatı sistemləri tam bərpa edilmiş, zərər çəkmiş əhaliyə ilkin yardım göstərilmişdi.

*Ardı 2-ci səh.*

# “Harayımıza Mehriban xanım çatdı”

## Zəlzələdən sonra Heydər Əliyev Fondu tərəfindən Şamaxıda 35 fərdi ev tikilib, 12 evdə təmir-bərpa işləri aparılıb





*Əvvəli 1-ci səh.*

Fevralın 7-də Prezident İlham Əliyev özü zəlzələ zonasına gələrək sakinlərlə görüşmüş, təbii fəlakətin törətdiyi fəsadların aradan qaldırılacağını bildirmişdi. Dövlət başçısı elə yerindəcə əhalinin müraciətlərinə diqqətlə baxılması, evlərə, həmçinin sosial və infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması üçün müvafiq icra strukturlarına tapşırıq və göstərişlərini vermişdi. Şamaxı şəhərində sakinlərlə söhbət zamanı Prezident İlham Əliyev dövlətin zəlzələnin nəticələrinin aradan qaldırılmasını öz üzərinə götürdüyünü və bütün qəzalı evlərin qısa müddət ərzində ya bərpa ediləcəyini, ya da yenidən tikiləcəyini bildirmişdi.

Qeyd edək ki, təkcə zəlzələnin baş verməsindən iyun ayına qədər Şamaxı Rayon İcra Hakimiyyətinə və Fövqəladə Hallar Nazirliyinin 112 qaynar xəttinə ümumilikdə 6251 müraciət daxil olmuşdur. Ötən ilin dekabr ayına qədər 334 qəzalı evin tikintisinə dair qərar qəbul edilmişdir. Onlardan 189-nun inşası başa çatdırılaraq sakinlərin istifadəsinə verilmişdir. 16 evdə isə son tamamlanma işləri gedir və yaxın günlərdə sahiblərinə təhvil veriləcək. Bununla yanaşı bərpasına ehtiyac duyulan 1288 evin 1175-də bərpa işlərinə başlanılıb ki, onlardan da 1108-də işlər başa çatdırılıb. Bərpa işləri aparılan 67 evdə son tamamlama işləri görülür.



### “Dedilər ki, Mehriban Əliyevanın tapşırığı ilə gəlmişik”

Təbii fəlakətin baş verdiyi ilk gündən ölkənin aidiyyəti strukturlarının faciənin nəticələrinin aradan qaldırılması üçün qüvvələrini tam səfərbər etmələri, mərkəzi icra orqanlarının rəhbər şəxslərinin ərazidə olmaları Azərbaycan hakimiyyətinin öz vətəndaşına diqqət və qayğısının bariz təcəssümüdür. Eyni zamanda zəlzələdən sonra Mehriban Əliyevanın tapşırıq və göstərişləri ilə Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyinin nümayəndələri də təbii fəlakətdən zərərçəkən ərazilərdə olub, yeraltı təkanların yaratdığı fəsadları araşdıraraq sakinlərin müraciətlərini qeydə alıblar.





Heydər Əliyev Fondu tərəfindən Şamaxı rayonunda zəlzələdən sonra qəzalı vəziyyətə düşmüş 35 fərdi ev tamamilə sökülərək yenidən tikilib. 12 evdə isə təmir bərpa işləri aparılıb. Şamaxıda olarkən yolumuzu ilk olaraq Gülməmmədovların yeni evindən saldıq. Zəlzələdən sonra soyuq qış günündə olduqca çətin vəziyyətə düşdüklərini deyən ailənin xanımı Hicran Gülməmmədovanın sözlərinə görə, Prezident İlham Əliyevin Şamaxıya gəlməsi vəziyyəti kökündən dəyişib, qəzalı vəziyyətə düşmüş evlərinin yerində isə Mehriban Əliyevanın sayəsində yenisi inşa edilib: “Soyuq qış günündə baş verən zəlzələdən sonra evsiz-eşiksiz qalmaq çətin idi. O çətin günlərdə harayımıza Mehriban xanım yetişdi. Həmin ərəfədə bütün uçmuş və qəzalı vəziyyətə düşmüş evlərdə yoxlamalar aparıldı. Bizimlə Heydər Əliyev Fondunun nümayəndələri maraqlandı. Dedilər ki, Mehriban Əliyevanın tapşırığı ilə gəlmişik. Evə baxış keçirdilər. Mart ayında isə Heydər Əliyev Fondu tərəfindən yeni evin tikintisi başlandı”.

Beləliklə, mart ayında sökülən evin yerində qısa müddətdə yenisi inşa olunur. Heydər Əliyev Fondu tərəfindən ev həm də mebellərlə təmin edilir. İyul ayında artıq ailə yeni evdə yaşamağa başlayır. Üçotaqlı bu ev sahəsinə görə əvvəlkindən də genişdir. Sentyabr ayında Şamaxıya səfər edən Mehriban Əliyeva ailəyə qonaq gələrək yeni evlə tanış olur.

Hicran Gülməmmədova deyir ki, Mehriban Əliyevanın qızı Leyla Əliyeva ilə gəlişi onların sevincini yerdən göyə artırdı. İndi ailə məhz Mehriban Əliyevanın sayəsində inşa edilmiş yeni evdə əvvəlkitək firavan günlərini yaşayır.

### Dövlət hər zaman vətəndaşının yanındadır

Dağıdıcı zəlzələ vaxtı ən çox zərər Şamaxı rayonuna dəyib və burada daha çox fərdi evlər və təsərrüfatlar dağıntıya məruz qalıb. Ona görə də zəlzələdən sonra aparılan yenidənqurma, bərpa və təmir işləri əsasən Şamaxının rayon mərkəzini əhatə edir. Fövqəladə Hallar Nazirliyinin zəlzələ bölgəsi üzrə qərargahının rəisi Həsən Qasımzadənin sözlərinə görə, indiyə qədər bu rayonda görülən işlərin böyük əksəriyyəti yerinə yetirilib. Təməli Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın martın 7-də Şamaxıya etdikləri səfər zamanı qoyulan 44 mənzilli bina ötən ilin payızında sakinlərin ixtiyarına verilib. O cümlədən Şamaxı şəhərində 20 mənzilli digər bina da öz sahiblərinə təqdim olunub.

Dekabrın 5-də Şamaxıda səfərdə olan Prezident İlham Əliyev zəlzələdən ziyan çəkmiş ailələr üçün yeni inşa edilmiş 44 mənzilli yaşayış binasında yaradılmış şəraitlə tanış olub. Zəlzələdən sonra görülən işlərə münasibət bildirən dövlət başçısı “Bütün bunları biz dövlətin vəsaiti hesabına etdik. Bir daha göstərdik ki, Azərbaycan dövləti hər zaman Azərbaycan vətəndaşının yanındadır”, - deyə bildirib.

Azərbaycan hakimiyyəti baş verən istənilən ekstremal və təbii hadisələrə daim çevik reaksiya göstərib, ilk növbədə, öz vətəndaşına lazımi diqqət və dəstəyi göstərib. Şamaxı, İsmayıllı və Ağsu rayonlarında baş verən zəlzələdən sonra bu, bir daha özünü göstərdi. Ötən bir il ərzində zəlzələnin fəsadlarının demək olar ki, böyük bir qismi aradan qaldırılıb. Mehriban Əliyevanın tapşırığı ilə Heydər Əliyev Fondunun zəlzələ bölgəsində başlatdığı işlər tam başa çatdırılıb. Şamaxıda tikintisi gedən 110 mənzilli yaşayış binasının və fərdi evlərin inşası isə ən qısa vaxtda yekunlaşacaq.

*(ardı var)*

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

---

*Gün çıxdı güldü göylər,*
*Nur yayıldı aləmə.*
*Çünki biz şənlənirdik,*
*Dilimizdə bu nəğmə;*
*Deyirdik hamımız: Anacan!*
*Sevimli mahnımız: Anacan...*



# Mehriban Əliyevanın sabahımıza ərməğanı

İkimərtəbəli çəhrayı binanın iri şüşəli qapılarından içəri daxil olanda eşitdiyimiz bu nəğmə bizi uzun illər öncəyə, həyatımızın qayğısız dövrlərinə apardı bir anlıq... İndi uzaq keçmişdə qalan uşaqlığımızda bizə də bağçada bu mahnını öyrədir, sonra da sevinərək evdə anamıza oxuyardıq... Və o vaxtdan mahnı beynimizə, ürəyimizə, ruhumuza elə hopub ki, onu ötən yaşlar, illər belə, qopara bilmir...

Keçmiş xəyallar dünyasından ayrılıb, bu şirin ifanın “izinə” - səsinə düşürük. Pianonun dillərindən qopan şən nəğmənin sədaları altında musiqi zalına doğru addımlayırıq. Qapını aralayanda adamın üzünə təbəssüm qonduran gözəl bir mənzərə ilə qarşılaşırıq - balacalar piano arxasında əyləşən musiqi müəlliminin ətrafında dövrə qurub həvəslə, sevinclə, şirin tələffüzləri, eyni zamanda düzgün ritm ilə “Anacan” mahnısını oxuyurlar...

Bakının Yasamal rayonundakı 11 saylı körpələr evi-uşaq bağçasındayıq. Demə, bu hazırlıq 8 Mart Beynəlxalq Qadınlar günü münasibətilədir. Bayrama hazırlaşırlar körpə fidanlar. İndidən məşqlərə başlayıblar. Mahnılar öyrənirlər, şeirlər əzbərləyirlər, hazırladıqları səhnəcikləri, müxtəlif rəqsləri məşq edirlər... Üstəlik, bapbalaca boylarına biçilmiş milli geyimləri də var...









### “Günəş”, “Mələklər”, “Ulduz”, “Təbəssüm”

Musiqi zalından çıxıb bir-bir qrupları gəzirik. Bağçada Azərbaycan və rus olmaqla 8 qrup fəaliyyət göstərir. Onlardan ikisi körpə, ikisi orta, ikisi böyük, ikisi də məktəbə hazırlıq qrupudur. Hər qrupda yemək, oyun, yataq və mətbəx otağı ayrıdır. Qapıların üzərinə vurulmuş adlar və ona uyğun şəkillər diqqətimizi çəkir. Demə, hər qrupun öz adı var. Məsələn, “Günəş”, “Mələklər”, “Ulduz”, “Təbəssüm”... Otaqlardakı şkafların üstünə qrupun adına uyğun dekor vurulub, onun da üzərinə uşaqların fotoları yapışdırılıb. Beləcə, azyaşlılar öz otaqlarını və şkaflarını dəyişik salmırlar...

Otaqları gəzdikcə gülərüzlü, bal kimi şirin balalarla söhbətləşirik, onları izləyirik. Uşaqların saf dünyasını böyüklərin gözü ilə seyr edirik. Bu dünyada nələr yoxdu ki?! Hərəsi bir nağıl dünyası qurub öz aləmində. Və o nağıl dünyasının qəhrəmanını bacardığı kimi, istədiyi rəngdə və formada kağıza köçürür...

Ağzı əmzikli körpələr “Cücələrim”in sədaları altında rəqs edirlər...

Böyük qrupda uşaqlar rəqəmlərlə tanış olurlar...

Məktəbə hazırlıq qrupunda isə məşğələ vaxtıdır. Uşaqların hamısı öyrənməyə həvəslidir. Artıq bilirlər ki, bir neçə aydan sonra elə özləri boyda olan çantalarını çiyinlərinə asıb, məktəbə gedəcəklər. Əksəriyyəti indidən gələcək peşəsini seçib. Kimisi həkim, kimisi polis, kimisi müəllim, kimisi isə pilot... olmaq arzusundadır.

Hava yaxşı olduğu üçün azyaşlılar həyətə də çıxırlar. Oyun meydançasında oynayır, sürüşür, qaçır, əylənir, təmiz hava qəbul edirlər. Ardınca isə nahar edirlər. Bu körpə fidanları öz təmiz nağıl dünyaları ilə baş-başa buraxıb müəllimləri ilə söhbətləşirik.

### “Uşaqları texnikanın zərərlərindən qorumaq borcumuzdur”

Bağçanın metodisti Mətanət Səfiyeva 14 ildir bu sahədə fəaliyyət göstərir. Keçən ilin iyulun 3-dən isə 11 saylı körpələr evi-uşaq bağçasında çalışır. Deyir ki, bağçada bütün məşğələlər vaxtında keçirilir. Uşaqlar ətraf aləm haqqında ümumi anlayışları bilirlər. Hərfləri, rəqəmləri çap şəklində öyrənirlər. Stolüstü, didaktik oyunlar oynayırlar. Bağçada tədbirlər, bayram şənlikləri təşkil olunur. Musiqi müəlliminin rəhbərliyi altında müxtəlif musiqilər, rəqs nümunələri, səhnəciklər hazırlanır.

Metodist on il əvvəlki uşaqlarla indikilər arasında çox böyük fərq olduğuna da diqqət çəkir: “Bu fərq ildən-ilə artır. Bilmirəm valideynlər uşaqları ərköyün edir, zəmanədəndirmi, yoxsa səbəb internet əsridirmi?! İndiki uşaqların diqqətləri yayınıqdır, yaddaşları zəifdir. Uşaq uşaqla oynamaq istəmir sanki. Oynayanda da aqressiv davranırlar. Fikirləri başqa oyunlardadır. Daha çox televizora, telefona, internetə bağlıdırlar. Texnikadan başları yaxşı çıxır. Biz uşaqlarla psixoloji iş də aparırıq. Valideynlərə isə məsləhət görürük ki, uşaqları zərərli vərdişlərdən uzaq tutsunlar. Amma yenə də ana işini yüngülləşdirmək üçün uşağın əlinə telefonu verir, o da saatlarla tərpənmədən gözünü eyni yerə dikir. Bəli, bu gün texnika əsridir, uşaqlar müasir yenilikləri bilməlidir. Amma onları texnikanın zərərlərindən qorumaq biz müəllimlərin və valideynlərin borcudur”.

### “Onların sayəsində belə gözəl, rahat şəraitdə işləyirik”

11 saylı körpələr evi-uşaq bağçasının direktoru Azadə Əhmədova məlumat verdi ki, bağçanın iki korpuslu binası 1965-ci ildə inşa olunmuşdur. Lakin binalar özülsüz olduğu üçün qəzalı vəziyyətdə idi və əsaslı təmirə ehtiyac vardı. Odur ki, Heydər Əliyev Fondunun “Məktəbəqədər təhsil müəssisələrinin inkişafı” proqramı çərçivəsində bina sökülərək, yerində ikimərtəbəli müasir bina tikildi. Körpələr evi-uşaq bağçasının inşasına 2018-ci ilin mayında başlanıldı. 2019-cu il iyunun 13-də Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın da iştirakı ilə bu təhsil müəssisəsinin açılış mərasimi oldu: “Mən dövlət başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya uşaqlara göstərdiyi qayğıya, diqqətə görə minnətdaram. Onların sayəsində belə gözəl, rahat şəraitdə işləyirik. Mehriban xanım özü də bağça ilə tanış olanda binanı çox bəyəndi. Çünki bina bağçadan çox məktəb binasına oxşayır. Mən 25 ildir bu bağçaya rəhbərlik edirəm. Burda pedaqoji iş yüksək olsa da, şərait yox idi. Bu da valideynləri narahat edirdi. Ancaq indi hər şey yüksək səviyyədədir. Valideynlər də çox razıdırlar. Artıq bağçaya gələn uşaqların da sayı artıb”.

Direktorun sözlərinə görə, uşaq bağçasındakı şərait ən müasir tələblərə uyğunlaşdırılıb, bütün işlər yüksək keyfiyyətlə və zövqlə yerinə yetirilib. Binanın giriş hissəsi, foye, qrup otaqları və zallar burada tərbiyə alan azyaşlılara uyğun xüsusi dizaynla işlənib. İkimərtəbəli məktəbəqədər təhsil müəssisəsinin otaqları və dəhlizləri uşaqların sevimli nağıl qəhrəmanlarının şəkilləri ilə bəzədilib, qrup otaqları zəruri inventarla, mebel dəstləri ilə təchiz edilib. Yeni binada komplektləşdirilmiş qrup otaqları, mətbəx və yeməkxana, idman və musiqi zalları, həmçinin digər otaqlar var.

### İkinci həyatını yaşayan bağça

Bağçanın yerləşdiyi ərazidə və ətrafda genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, yaşıllıqlar salınıb, işıqlandırma sistemi quraşdırılıb. Burada balacaların istirahəti üçün oyun və idman avadanlığı da var.

A.Əhmədova deyir ki, ümumi sahəsi təxminən 2 min kvadratmetrə yaxın olan körpələr evi-uşaq bağçasında bir yaşdan 6 yaşadək 150 uşağın təlim-tərbiyəsi ilə 30 nəfərdən ibarət peşəkar heyət məşğul olur. Burada fəaliyyət göstərən qrupların hər biri üçün oyun və yataq otaqları, musiqi və əyləncə zalları, tibb kabineti, müasir avadanlıqla təchiz olunmuş mətbəx və yeməkxana tikilib. Binada müşahidə kameraları, yanğından mühafizə sistemi quraşdırılıb. Bir sözlə, bağçada yaradılan yüksək şərait uşaqların təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmağa imkan verir, həmçinin onların bilikli və zəngin dünyagörüşünə malik bir vətəndaş kimi formalaşmasında mühüm rol oynayır: “Əlbəttə, tərbiyə ilə bərabər təlim də çox əhəmiyyətlidir. Çalışdığımız qədər uşaqları məktəbə yaxşı hazırlayırıq. Uşaqların musiqi zövqünün formalaşdırılmasına önəm veririk. Onu da qeyd edim ki, 2006-cı ildən bağçada inklüziv təlim gedir. Problemli, xüsusi qayğıya ehtiyacı olan uşaqlar da bağçaya qəbul olunur. Hazırda 9 belə uşağımız var”.

Uşaqların qidalanmasına xüsusi önəm verildiyinə diqqət çəkən direktor söyləyir ki, kənardan bağçaya hansısa qidanın gətirilməsi qəti qadağandır. Qida təzə-təzə hazırlanıb, qruplara paylanılır. Meyvə-tərəvəz, ət və süd məhsullarına və qızartma deyil, sobada bişirilmiş yeməklərə üstünlük verilir.

Bağçanın tibb bacısı hər gün səhər uşaqları müayinə edir. Xəstə uşaqların sağlam uşaqları da yoluxdurmaması üçün onlar elə qapıdaca evə geri qaytarılır.

Bir sözlə, müəssisədə balacaların həm sağlamlığı əmin əllərdədir, həm də vaxtlarını maraqlı və səmərəli keçirmələri üçün hərtərəfli şərait yaradılıb.

11 saylı körpələr evi-uşaq bağçasının 54 illik tarixi var. Yarım əsrdən çox yaşı olan bu müəssisə artıq bir ilə yaxındır ki, ikinci həyatını, müasir dövrünü yaşayır. Bu bağça indiyədək yüzlərlə, minlərlə vətən övladını həyata, cəmiyyətə hazırlayıb. Bundan sonra da hələ uzun illər öz missiyasını yerinə yetirəcək. Saysız-hesabsız uşaqlar bu bağçada yetişəcək, yeni müəllimlər gəlib-gedəcək... Bircə dəyişilməyən bu bina olacaq və bu, Mehriban Əliyevadan övladlarımıza - gələcəyimizə, sabahımıza ərməğan kimi tarixə yazılacaq.

***Xəyalə MURADLI,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***“Azərbaycan”***

# İlham Əliyevin ibrətamiz tarix dərsi və diplomatiya mesajı

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyevin dialoqdakı bəyanatları, çıxışlarında və cavablarında, hər şeydən əvvəl, Dağlıq Qarabağla bağlı tarixi həqiqətlər aydın şəkildə meydana qoyulmuşdur. Bu məqamda dərin biliyə və zəngin tarixi məlumatlara malik olan İlham Əliyevin nəzərə çatdırdığı mətləblər təkzibedilməz real gerçəkliyin ifadəsindən ibarətdir.

Dövlət başçımızın bəyan etdiyi tarixi məlumatlar Azərbaycan tarix elmi ilə yanaşı, dünya Qafqazşünaslığında da öz əksini tapmış gerçəkliklərdir. Ermənistanın Baş naziri Nikol Paşinyanın istinad etdiyi tarixi informasiya isə saxtalaşdırılmış və uydurma erməni tarixindən başqa heç bir mənbədə yer almayıb.

Prezident İlham Əliyevin verdiyi tarixi məlumatları mənbələr əsasında, hətta qədim miflərə və toponimlərə qədər dərinliklərə gedib yoxlamaqla dəqiq olduğunu müəyyənləşdirmək mümkündür. Nikol Paşinyanın dediklərinin isə saxtalığı artıq dünya ictimaiyyətinə də bəlli olan uydurma erməni mənbələrindən, yaxud da "Arqumentı i faktı" qəzetindəki həmin qəzetin redaksiyasında çalışan erməni cızmaqaraçılarının və ya onlara dəstək verən erməniyönlü jurnalistlərin saxta publisist yazılarından irəli gedə bilmir. Nikol Paşinyanın Qafqazda və Şərqi Anadoluda heç bir tarixi izləri, mifologiyası və toponimi olmayan uydurulmuş ermənilər haqqındakı məlumatlara əsaslanan mülahizələri nəinki elmə, normal məntiqə də sığmır.

Qafqazda böyük cinayətlərin törədilməsində əsas simalardan biri olan, bolşeviklərin əlaltısı, terrorçu Stepan Şaumyanın "şərəfinə" Stepanakert adlandırılan şəhərin adı ilə əlaqədar cənab Prezidentin ifadə etdiyi mülahizələr regionda erməni izlərinin yalnız yaxın tarixi dövrlə bağlı olduğunu isbat edir: *"Şaumyan bolşeviklərdən biri idi. O, günahsız azərbaycanlıları qətlə yetirmiş şəxs idi.*

*Bugünkü Dağlıq Qarabağın qondarma paytaxtı onun adı ilə adlandırılıb. Sual olunur: əgər Dağlıq Qarabağ qədim Ermənistan ərazisidirsə, niyə paytaxtın adı qədim erməni adı ilə adlandırılmayıb? Çünki paytaxtın qədim adı Xankəndidir - Xanın kəndi. Stepanakert, çünki Şaumyanın adı Stepan idi, "kert" Ermənistanda şəhər deməkdir. ...Stepanakert həmin bolşevikin adı ilə adlandırılıb. Bu bir daha onu sübut edir ki, həmin ərazidə heç bir erməni tarixi irsi yoxdur".*

Nikol Paşinyanın Azərbaycanın vaxtilə bolşeviklərin əli ilə yaradılmış Şaumyan rayonundan Dağlıq Qarabağa aid ərazi vahidi kimi danışması savadsızlıqdır. Bu qədər yaxın keçmişə dair dəqiq məlumatı olmayan, mövcud xəritədən başı çıxmayan bir adamın erməni katalikosu Tiqrandan danışması uydurma, saxta erməni mənbələrindəki informasiyanın mexaniki əzbərlənməsindən başqa bir şey deyildir.

Bu baxımdan onun "çox böyük erməni əhalisi olan Naxçıvan məsələsindən" söz açması da böyük Ermənistan xülyası yayan erməni "ideoloqları"nın diktə etdiyi yalanların məkrli şəkildə gündəmə gətirilməsi deməkdir. Məlum olduğu kimi, Dağlıq Qarabağ kimi, Azərbaycanın üzvi tərkib hissəsi olan Naxçıvan da bugünkü azərbaycanlıların ulu əcdadlarının məskunlaşdığı qədim türk-oğuz yurdudur. Naxçıvanda "Kitabi-Dədə Qorqud" dastanlarında öz əksini tapmış 50-dən çox Azərbaycan toponimi vardır. Aparılan arxeoloji qazıntılar, zəngin folklor materialları Naxçıvanın ən qədim Azərbaycan diyarı olduğunu təsdiq edir. Dağlıq Qarabağ kimi Naxçıvana da ermənilər XIX əsrin əvvəllərində Türkmənçay müqaviləsindən sonra köçürülmüşdür. Çar Rusiyasının məqsədli şəkildə Naxçıvana göndərib kitab yazdırdığı V.Qriqoryevin 1829-cu ilə Sankt-Peterburqda çap olunmuş "Naxçıvan vilayətinin statistik təsviri" adlı əsərində ermənilərin Naxçıvana köçürülməsi və yerləşdirilməsindən doğan çətinliklərdən geniş bəhs edilmişdir. Lakin Naxçıvana köçürülmüş ermənilər buradakı yerli azərbaycanlı əhalisinə inteqrasiya oluna bilmədikləri üçün XX əsrin ikinci yarısından başlayaraq Ermənistana köçməyə məcbur qalmışlar.

Bütün bunlar Nikol Paşinyanın tarixi biliyinin olmamasını, belə dayaz "rəhbərlə" tarixdən müzakirə açmağın lüzumsuz, əhəmiyyətsiz olduğunu isbat edir. Bütün bunlardan sonra Nikol Paşinyandan Dağlıq Qarabağın statusu haqqında yalnız yanlış, birtərəfli münasibətdən başqa heç nə gözləmək olmaz. Panel müzakirəsi zamanı Nikol Paşinyanın dediyi yeganə düz söz "Dağlıq Qarabağ Azərbaycan torpağıdır" ifadəsindən ibarətdir. Paşinyanın bu sözləri çaşdığı üçün yanlış dediyini bildirsə də o, əslində, ömründə heç olmasa bir dəfə düzgün ifadə işlətməyə məcbur olub. Azərbaycanda geniş yayılmış bir atalar sözündə deyildiyi kimi "dil çaşar, düzünü deyər". Dağlıq Qarabağ tarixi ədalət nəticəsində Azərbaycana qaytarıldıqda Paşinyan bu hadisəni vaxtilə uzaqgörənliklə söylədiyini bəyan edə biləcəkdir.

Münxen Təhlükəsizlik Konfransında Dağlıq Qarabağ məsələsinə siyasi-diplomatik cəhətdən qiymət verməkdə də dialoq tərəfləri fərqli mövqedən yanaşaraq öz mülahizələrini bildirmişlər. Azərbaycan Respublikasının Prezidenti tarixi baxımdan olduğu kimi, siyasi baxımdan da Dağlıq Qarabağ münaqişəsinin mahiyyəti, Dağlıq Qarabağın hüquqi statusuna dair obyektiv elmi-siyasi dəyərləndirmələr irəli sürmüşdür. Nikol Paşinyanın "Qarabağ heç vaxt Azərbaycanın tərkib hissəsi olmayıb. Qarabağ Sovet İttifaqının formalaşdırılması prosesi zamanı Azərbaycana verilib" - kimi əsassız müddəaları Prezident İlham Əliyev tərəfindən, sözün əsl mənasında, əsaslı dəlil-sübutlarla darmadağın edilmişdir.

Bu zaman Prezident İlham Əliyev tarixi reallıqlara və paralel olaraq beynəlxalq hüquq normalarına müraciət etməklə Dağlıq Qarabağın əsrlərboyu Azərbaycanın üzvi tərkib hissəsi olduğunu, sovet hakimiyyəti illərində isə Azərbaycan SSR-in tərkibində muxtar vilayət kimi fəaliyyət göstərdiyini əsaslı arqumentlərlə bir daha sübut etmişdir. Qaradağ xanlığının 1805-ci ildə Rusiya ilə imzaladığı Kürəkçay müqaviləsi, bolşevik partiyasının 1921-ci ildə Qarabağın Azərbaycanın tərkibində saxlanılması haqqında qəbul etdiyi qərar və sair kimi danılmaz tarixi faktlardan çıxış etməklə Azərbaycan Prezidenti Dağlıq Qarabağın həmişə ölkəmizin ayrılmaz bir parçası olmasını diqqətə çatdırmışdır. Paşinyanın mülahizələrində isə Qarabağın Ermənistana aid olması ilə bağlı heç bir faktın olmaması və onun bu reallığı siyasi hay-küylə ört-basdır etməyə çalışması bədnam qonşu ölkənin rəhbərini beynəlxalq ictimaiyyət qarşısında gülünc vəziyyətə salmışdır.

Paşinyan Dağlıq Qarabağla əlaqədar verilmiş Birləşmiş Millətlər Təşkilatının qətnamələrini də ermənisayağı təhrif etmişdir. Eyni zamanda, Paşinyanın Dağlıq Qarabağın erməni icmasının aparılan danışıqlarda tərəf kimi tanınması tələbinin də beynəlxalq hüquqa zidd olduğu Prezident İlham Əliyev tərəfindən əsaslı şəkildə rədd edilmişdir. Dövlət başçımız doğru olaraq bəyan etmişdir ki, danışıqlar yalnız təcavüzkar ölkə ilə, münaqişə aparan tərəf ilə aparılmalıdır ki, bu da Ermənistandır. Ermənistanın Dağlıq Qarabağdan qoşunlarını çıxarıb getdiyi, əlini çəkdiyi zaman Azərbaycan icmasının münaqişə subyekti ilə danışıqlar apara biləcəyi haqqında Prezident İlham Əliyevin qəti mövqeyi beynəlxalq təcrübəyə və sülh danışıqlarının məntiqinə tam uyğundur.

XX əsrin ən qanlı faciələrindən biri olan Xocalı soyqırımı haqqında da Ermənistan rəhbəri Nikol Paşinyan faciənin əsl səbəbkarlarını gizlətməyə, qanlı hadisəni törədənləri ört-basdır etməyə çalışmışdır. Əvvəla, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı ölkəmizin işğal olunmuş əraziləri, qaçqın və köçkünlərin sayı və Xocalıda törədilən faciənin miqyası ilə bağlı Münxen Təhlükəsizlik Konfransı tribunasından səsləndirdiyi faktlar və rəqəmləri təkzib etmək mümkün deyildir. İkincisi isə, Paşinyanın Xocalı qətliamı ilə bağlı dediklərinin yalan və böhtandan başqa bir şey olmadığı artıq Azərbaycan tərəfinin illərdən bəri apardığı ədalətli ideoloji mübarizə nəticəsində beynəlxalq ictimaiyyətə çatdırılmışdır. Ona görə də Prezident İlham Əliyevin nitqində deyildiyi kimi "müharibə cinayəti - Xocalı soyqırımı" törətmiş separatçı Ermənistan rejimini süni şəkildə dəstəkləməsi Paşinyanın da özündən əvvəlki başabəla sələflərindən heç nə ilə fərqlənmədiyini göstərir.

Normal dialoq, konstruktiv sülh danışıqları əvəzinə ermənilərin törətdikləri terroru və faciələri danmaq, süni bəraət statusu qazanmaq üçün yalanlara əl atmaq Paşinyanın da siyasi aqibətini Ermənistanın eks-prezidentlərinin acınacaqlı taleyinə doğru aparır. Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Nikol Paşinyanın Münxen danışıqlarında tutduğu mövqe onun öz ölkəsində özündən əvvəlki Ermənistan rəhbərləri ilə apardığı mübarizə ilə də ziddiyyət təşkil edir. Belə çıxır ki, Paşinyanın Ermənistanın daxilində apardığı siyasətlə beynəlxalq aləmdə nümayiş etdirdiyi siyasi mövqe bir-birinin əksinədir.

Beləliklə, Prezident İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı kimi mötəbər bir beynəlxalq forumun imkanlarından dünya ictimaiyyətinə Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar həqiqəti demək üçün bacarıqla istifadə etmişdir. Paşinyanın isə bu formatda məkrli erməni yalanlarını və xülyalarını beynəlxalq ictimaiyyətə sırımaq cəhdləri baş tutmuşdur. Müstəqil Azərbaycan dövlətinin başçısı obyektiv və ədalətli mövqeyi, Paşinyan isə yersiz iddiaları və haqsız müddəaları ilə yadda qalmışdır. Azərbaycan Prezidenti mənsub olduğu xalqın lideri, Paşinyan isə "yazıq erməni xalqının" naşı və təcrübəsiz hüquq müdafiəçisi kimi özünü təqdim etmişdir. Savadsız və məntiqsiz danışıqları Paşinyanı gülüş və istehza obyektinə çevirmişdir.

Prezident İlham Əliyevin ingilis dilindəki dəqiq və sərbəst danışması ilə müqayisədə Paşinyanın "kəkələməsi" onun onsuz da müsbət olmayan imicinə daha bir kölgə salmışdır. Sözün əsl mənasında, Prezident İlham Əliyev Ermənistan rəsmisinə ibrətamiz tarix dərsi keçmişdir və əsl həqiqətin yolunu göstərmişdir. Buna görə də Münxen Təhlükəsizlik Konfransı debatları Prezident İlham Əliyevin nüfuzunun dünya dövlət liderləri qarşısında bir daha yüksəlməsinə səbəb olmuşdur.

Münxen Təhlükəsizlik Konfransındakı panel müzakirələri Dağlıq Qarabağın Azərbaycanın üzvi tərkib hissəsi olmasını bir daha qüvvətli şəkildə səsləndirmək üçün əhəmiyyətli bir platforma olmuşdur. Azərbaycan Respublikası Prezidentinin aşağıdakı sözləri Dağlıq Qarabağ haqqında tarixi gerçəkliyin obyektiv ifadəsidir: *"Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir. Bu tarixi həqiqətdir və beynəlxalq hüququn normalarına əsaslanır. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır. Dağlıq Qarabağ bizim ölkəmizin ayrılmaz tərkib hissəsidir".* Fikrimizcə, bu obyektiv bəyanatın axırında növbəti dəfə nida işarəsi qoymaq lazımdır.

Dövlət başçımız beynəlxalq səviyyəli tədbirlərin hər birində özünün fərqli intellektual düşüncəsi, güclü məntiqi, aydın diplomatik mövqeyi ilə xalqımıza və ölkəmizə nida işarələri qazandırmaqda davam edir. Münxen Təhlükəsizlik Konfransında da Ermənistan tərəfi ilə dialoqda Prezident İlham Əliyevin nümayiş etdirdiyi idrak və mövqe hər bir Azərbaycan vətəndaşının qəlbində qürur dolu nida həyəcanı doğurur. Nikol Paşinyanın mövqeyi isə nəinki Dağlıq Qarabağın hüquqi statusu, hətta Ermənistanın sabahı üçün də ciddi bir sual işarəsi doğurur.

Ermənistanı böyük bəlalara, yoxsulluq və səfalətə düçar etmiş "Qarabağ klanı" kimi Nikol Paşinyanın da müddəaları öz xalqını münaqişədən xilas olmağa yox, növbəti fəlakətlərə doğru sürükləyir. Ermənistan xalqı normal qonşuluq münasibətləri qurmaq, ölkəsini böhrandan çıxarmaq naminə məhkum olduqları sual işarəsinin obyektiv və ədalətli cavabını tapmağa borcludur. Bunun üçün Azərbaycan Prezidenti İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransındakı panel müzakirəsindəki çıxışları və cavablarında irəli sürülən fikirləri, diqqətə çatdırılan mətləbləri dərindən öyrənmək və onlara əməl etmək Ermənistan tərəfini qabağa apara bilər.

*Ümumiyyətlə, Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransı çərçivəsindəki Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqları mükəmməl bir tarix dərsi və müdrik bir diplomatiya mesajıdır.*

*Bu, Azərbaycan Prezidentinin və müstəqil dövlətimizin yeni bir uğurudur.*

**İsa HƏBİBBƏYLİ,**
**AMEA-nın I vitse-prezidenti, akademik**

# Mərkəzi Seçki Komissiyasının iclası keçirilib

**Fevralın 19-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.**



MSK Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, əvvəlcə komissiyanın 10 fevral 2020-ci il tarixli iclasının protokolu təsdiq olunub.

Sonra 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərlə əlaqədar maraqlı subyektlərin və ərizəçilərin də iştirakı ilə MSK-ya daxil olan müraciətlərə baxılıb. Komissiya apardığı geniş, hərtərəfli və şəffaf araşdırma prosesi istiqamətindəki qəti mövqeyinə sadiq qalaraq təqdim olunan əlavə görüntüləri birbaşa iclasın gedişində nümayiş etdirib və aparılan müzakirələrin ardınca seçki qanunvericiliyinin tələblərinə uyğun qərarlar qəbul edib.

Qeyd etmək lazımdır ki, sosial şəbəkələr də daxil olmaqla müxtəlif mənbələrdən olan məlumatların araşdırılması və müraciətlərə baxılması nəticəsində seçicilərin iradəsinin müəyyənləşdirilməsinə imkan verməyən hallar və digər qanunazidd hərəkətlər nəzərə alınaraq, 30 saylı Suraxanı birinci seçki dairəsinin 1, 12, 14, 16 və 18, 47 saylı Mingəçevir seçki dairəsinin 9, 17 və 21, habelə 90 saylı Ağdaş seçki dairəsinin 6 və 7 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri ləğv olunub.

Beynəlxalq müşahidə missiyalarının, xarici qurumların və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdiyi iclasda cari məsələlərə də baxılıb.

# Sosial xidmətin inkişafına dair Milli Strategiya layihəsi hazırlanıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "2020-2026-cı illərdə Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair Milli Strategiya"nın layihəsi hazırlanıb.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, layihədə strategiyanın əsas məqsədi kimi sosial xidmətlərin təşkilati, iqtisadi və hüquqi mexanizmlərinin modernləşdirilməsi əsasında həmin xidmətlərin kifayət qədər keyfiyyətli və ehtiyacı olan vətəndaşlar üçün əlçatanlığının artırılması, beynəlxalq norma və standartlara uyğun təkmilləşdirilməsi, ünvanlılığının təmin edilməsi qeyd olunur. Strategiyanın əsas vəzifələri sırasına sosial xidmətin göstərilməsi sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi, sosial xidmət müəssisələrinin şəbəkəsinin genişləndirilməsi, qabaqcıl dünya ölkələrinin təcrübəsinə əsaslanan yeni sosial xidmət modellərinin yaradılması və tətbiqi, müvafiq sahədə kadr potensialının gücləndirilməsi və s. daxildir.

Ötən il nazirliyin saytında ictimai müzakirəyə təqdim edilən layihə ilə bağlı vətəndaş cəmiyyəti institutlarının rəy və təklifləri alınıb. Hazırda aidiyyəti qurumların rəy və təkliflərinin də alınması və layihənin təkmilləşdirilməsi işləri aparılır.

# Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qax və Qəbələ rayonlarında yeni inzibati binaları açılıb









Fevralın 19-da Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Qax rayon bölməsi və Qəbələ rayon şöbəsinin yeni tikilmiş inzibati binaları istifadəyə verilib.

Açılış mərasimlərindən əvvəl Ulu Öndər Heydər Əliyevin Qax və Qəbələ şəhərlərində ucaldılan abidələri önünə gül dəstələri düzülüb, xatirəsi ehtiramla yad edilib.

AZƏRTAC xəbər verir ki, SHXÇDX-nin Qax rayon bölməsinin inzibati binasının açılış mərasimində çıxış edən Xidmət rəisi, general-leytenant Arzu Rəhimov Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılmasında Ulu Öndər Heydər Əliyevin tarixi xidmətlərindən danışıb. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin çevik siyasəti nəticəsində ölkəmizin hərbi-siyasi və iqtisadi qüdrətinin ildən-ilə gücləndiyi qeyd olunub. "Xidmətin fəaliyyət istiqamətlərinə uyğun olaraq, son illər səfərbərlik hazırlığı və səfərbərlik işinin təşkili, vətəndaşların ilkin hərbi qeydiyyata alınması, müddətli həqiqi hərbi xidmətə hazırlanması və hərbi xidmətə çağırılması, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması sahəsində mühüm nailiyyətlər qazanılıb", - deyə Arzu Rəhimov vurğulayıb.

Qax Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev bölmənin şəxsi heyətini yeni binanın açılışı münasibətilə təbrik edib, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət proqramlarının regionların sosial-iqtisadi inkişafında yeni mərhələ açdığını bildirib.

Binanın açılışını bildirən lent kəsilib və mərasim iştirakçıları burada yaradılan şəraitlə tanış olublar. Məlumat verilib ki, Xidmətin Qax rayon bölməsinin ümumi sahəsi 1296 kvadratmetr olan ikimərtəbəli binası rayon hərbi həkim komissiyası üçün iş kabinetləri də daxil olmaqla, 26 otaq və 1 iclas zalından ibarətdir. Bina müasir standartlara və tələblərə uyğun inşa edilib, otaqlar şəxsi heyətin xidməti iş fəaliyyətinin yüksəldilməsi məqsədilə zəruri avadanlıqla tam təchiz olunub.

Qax şəhərinin Heydər Əliyev prospektində inşa edilən inzibati bina öz gözəlliyi ilə şəhərin ümumi arxitekturasına xüsusi rəng qatır. Həmin gün SHXÇDX-nin Qəbələ rayon şöbəsinin də açılış mərasimi olub.

Mərasimdə Xidmət rəisi, general-leytenant Arzu Rəhimov çıxış edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin komandanlığı altında son illər ərzində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində əldə edilən nəticələri diqqətə çatdırıb. Xidmət rəisi Qəbələ rayon şöbəsinin yeni inzibati binasının istifadəyə verilməsinin dövlət başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı quruculuq işlərinin növbəti təzahürü olduğunu vurğulayıb.

Mərasimdə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev çıxış edərək SHXÇDX-nin rayon şöbəsinin yeni inzibati binasının istifadəyə verilməsinin əməkdaşların fəaliyyətinə əlavə stimul yaradacağını deyib.

Məlumat verilib ki, Xidmətin Qəbələ rayon şöbəsinin üçmərtəbəli, 37 otaq, rayon hərbi həkim komissiyası üçün iş kabinetləri və 2 iclas zalından ibarət olan inzibati binasının ümumi sahəsi 2391 kvadratmetrdir. Müasir standartlara uyğun inşa edilən binanın bütün otaqları zəruri avadanlıq, inventar və kommunikasiyalarla təchiz edilib.

Daha sonra binanın açılışını bildirən lent kəsilib və mərasim iştirakçıları binada yaradılan şəraitlə tanış olublar.

Müasir memarlıq üslubunda inşa edilən bina öz gözəlliyi ilə Qəbələ şəhərinə xüsusi yaraşıq verir.

# Gəncə şəhərinin Baş planının hazırlanmasına start verilib

Prezident İlham Əliyevin göstərişinə əsasən, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ölkə şəhərlərinin planlı və sistemli inkişafını təmin etmək məqsədilə baş planların hazırlanması işini davam etdirir.

Komitədən AZƏRTAC-a bildirilib ki, əhalisinə görə paytaxtdan sonra ikinci böyük şəhər olan Gəncənin Baş planının komitə tərəfindən hazırlanması prosesinə 2020-ci ildə start verilib. Layihə beynəlxalq tender vasitəsilə cəlb olunmuş Fransanın "Vasconi Architects by Thomas Schinko" şirkəti və "Azərdövlətlayihə" Dövlət Baş Layihə İnstitutu tərəfindən həyata keçiriləcək. Komandanın hazırlığı və şəhərə dair bəzi məlumatların ilkin analizi başa çatdıqdan sonra layihə icraçılarının rəhbərləri və ekspertlərin iştirakı ilə bu həftə komitədə ilk geniş tərkibli müzakirələr təşkil olunub.

Görüşdə şəhərin yol-nəqliyyat infrastrukturunun, mühəndis-kommunikasiya sisteminin, ətraf mühitinin, ekoloji durumunun və ictimai məkanlarının inkişafına dair konsorsium üzvlərinin ilkin yanaşmaları təqdim olunub. Eyni zamanda, layihənin icra qrafiki, habelə Gəncənin bugünkü çağırışları, gələcək siması və inkişaf hədəfləri barədə ətraflı fikir mübadiləsi aparılıb. İmzalanmış müqaviləyə əsasən, Baş planın hazırlanması layihəsinin 30 ay müddətində mərhələli şəkildə həyata keçirilməsi nəzərdə tutulub. Aparıcı beynəlxalq təcrübəyə uyğun olaraq ilkin mərhələdə Gəncə şəhərinin inkişaf konsepsiyasının hazırlanması planlaşdırılıb.

Bununla yanaşı, komitə tərəfindən Baş planın hazırlanmasına cəlb edilən yerli və beynəlxalq ekspertlərin Gəncəyə səfəri də təşkil olunub. Səfər çərçivəsində Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı və şəhərin inkişafında iştirak edən aidiyyəti dövlət təşkilatlarının nümayəndələri ilə görüşlər keçirilib, mövzuya dair ilkin müzakirələr aparılıb, şəhər infrastrukturuna yerində baxışlar təmin edilib.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Bakı, Gəncə və ölkənin bir çox digər şəhərlərinin sistemli və davamlı inkişafında strateji əhəmiyyətə malik əsas şəhərsalma sənədi olan baş planların hazırlanması üzrə kompleks fəaliyyətini davam etdirir. Bu istiqamətdə işlərin müəyyən olunmuş müddətlər çərçivəsində və yüksək peşəkarlıqla görülməsi məqsədilə komitə bütün resurslarını səfərbər edib prosesin Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə və aparıcı beynəlxalq standartlara uyğun təşkili üçün bütün səylərini əsirgəməyəcək.

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## QƏRAR № 27/294

### Mərkəzi Seçki Komissiyasının 10 fevral 2020-ci il tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 10 fevral 2020-ci il tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*19.02.2020-ci il*

## QƏRAR № 27/295

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 17 fevral 2020-ci il tarixli 249 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 56 saylı Xaçmaz kənd seçki dairəsi üzrə qeydə alınmış namizəd Ramazanov Şövkət Əlişah oğlu 2020-ci il fevralın 17-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsinin bir sıra seçki məntəqələrində səsvermə günü qanun pozuntularına yol verildiyini iddia etmiş və bu pozuntuların araşdırılmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsinin) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilərək rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Digər seçki məntəqələri üzrə namizəd tərəfindən təqdim edilmiş elektron məlumat daşıyıcısında olan görüntülərin araşdırılması ilə seçkilərin nəticəsinə təsir edən və seçicilərin iradəsini ifadə etməyə imkan verməyən pozuntular müəyyən edilməmişdir.

Göstərilənlərə əsasən müraciət qismən təmin edilməli, 6 və 7 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci, 170-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 90 saylı Ağdaş seçki dairəsi üzrə qeydə alınmış namizəd Cəbrayılova Səidə Dursun qızının müraciəti qismən təmin olunsun, həmin seçki dairəsinin 6 və 7 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin.
2. 90 saylı Ağdaş seçki dairəsi dairə seçki komissiyasının 12 fevral 2020-ci il tarixli, 19/65 saylı qərarı 6 və 7 saylı seçki məntəqələri üzrə hissədə ləğv edilsin, digər hissələrdə dəyişdirilmədən saxlanılsın.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*19.02.2020-ci il*

**QƏRAR № 27/307**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 17 fevral 2020-ci il tarixli 259 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 108 saylı Ağstafa seçki dairəsi üzrə qeydə alınmış namizəd Mustafayev Vüqar Şahverdi oğlu 2020-ci il fevralın 17-də Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək səsvermə günü həmin seçki dairəsinin seçki məntəqələrində qanun pozuntularının olduğunu iddia etmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilərək müraciətin aidiyyət qaydalarının pozulması ilə daxil olduğu müəyyən edilərək bu barədə müvafiq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə görə müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 4-cü hissəsinə əsasən **qərara alır:**

1. 108 saylı Ağstafa seçki dairəsi üzrə qeydə alınmış namizəd Mustafayev Vüqar Şahverdi oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 17 fevral 2020-ci il tarixli 259 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*19.02.2020-ci il*

**QƏRAR № 27/308**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 17 fevral 2020-ci il tarixli 241 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 97 saylı Goranboy - Ağdam - Tərtər seçki dairəsi üzrə qeydə alınmış namizəd Həsənov Malik Əli oğlu 2020-ci il fevralın 17-də Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək səsvermə günü həmin seçki dairəsinin seçki məntəqələrində qanun pozuntularının olduğunu iddia etmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilərək müraciətin aidiyyət qaydalarının pozulması ilə daxil olduğu müəyyən edilərək bu barədə müvafiq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə görə müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 4-cü hissəsinə əsasən **qərara alır:**

1. 97 saylı Goranboy - Ağdam - Tərtər seçki dairəsi üzrə qeydə alınmış namizəd Həsənov Malik Əli oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 17 fevral 2020-ci il tarixli 241 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*19.02.2020-ci il*

Müəllifi İlham Əliyevdir








# Gədəbəydə «ASAN xidmət» modeli

## Prezident İlham Əliyevin mütərəqqi islahatlarının real nəticəsi olaraq yaradılan Operativ Xidmət Mərkəzi vətəndaş məmnunluğunun və səmərəli fəaliyyətin uğurlu formuludur

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyevin müəllifi olduğu və Azərbaycanın milli brendinə çevrilən “ASAN xidmət”in iş metodlarının, fəaliyyət üslubunun tədricən tətbiq olunduğu və meyar kimi qəbul edildiyi Operativ Xidmət Mərkəzinin ən mühüm məram və məqsədi rayon icra hakimiyyətinin səlahiyyətlərinə şamil olunan xidmətin və fəaliyyətin optimallaşdırılmasını, effektivliyini təmin etmək, vətəndaş müraciətlərinin operativ formada həllinə nail olmaqdır.

### Prezident tapşırığının uğurlu icrası

Operativ Xidmət Mərkəzinin fəaliyyətini təmin etmək məqsədilə rayon icra hakimiyyəti yaxınlığında yeni bina inşa olunub. Binanın inşaat planı hazırlanarkən onun xidmət yönümünə uyğunlaşdırılmasına xüsusi önəm verilib. Qarşıdakı illərdə daha geniş fəaliyyət miqyasına malik olma perspektivinin də nəzərə alındığı layihənin icrası keyfiyyətlə həyata keçirilib.

Ən müasir zövqlə dizayn edilən, bütün zəruri maddi-texniki təchizatla, avdanlıqla təmin olunan bina 625 kvadratmetr sahəyə malikdir. Burada məlumat masası, server otağı, böyük monitor, ATS, 8 nəfərlik “dəyirmi masa”, növbəliliyi təyin edən terminal, ödəmələrin həyata keçirilməsi üçün “Milli Ön” aparatı, 9 bilgisayar dəsti mövcuddur. Vətəndaşların rahatlığını təmin edən gözləmə zalında 36 kreslo dəsti yerləşdirirlib.

Gədəbəyin ən müasir, modern infrastrukturları sırasında olan Operativ Xidmət Mərkəzinin binası ilə tanış olarkən rayon icra hakimiyyətinin başçısı İbrahim Mustafayevlə rastlaşdıq. Son tamamlanma işlərinə şəxsən nəzarət edən rayon icra başçısı ilə əməkdaşlar mərkəzin infrastrukturuna bağlı ən xırda detalları da qızğın müzakirə edir, yekun dəyərləndirmələrini aparırdılar.

Müzakirələr və son tapşırıqlar bitəndən sonra İbrahim Mustafayevlə həmsöhbət olduq. “Bu mərkəzin müəllifi məhz möhtərəm Prezident İlham Əliyevdir”, - deyə söhbətə başlayan rayon icra hakimiyyətinin başçısı vurğuladı ki, dövlət başçısının qarşımızda müəyyənləşdirdiyi vəzifələrin əsas qayəsi vətəndaşa layiqli xidmət, əhalinin problemlərinin həllində qüvvələrimizi səfərbər etməkdir: “Prezidentin digər tələbi isə bu prosesdə ənənəvi üsullardan deyil, məhz müasir metodlardan, innovativ təşəbbüslərdən bəhrələnməkdir. Hamımızın qarşısında cənab İlham Əliyevin rəhbər kimi nümunəsi və örnək fəaliyyəti var. Yəni elə bu nümunənin timsalında hər bir məmur ən uğurlu fəaliyyəti göstərmək imkanındadır. Operativ Xidmət Mərkəzi də bu baxımdan dövlət başçısının tələb və göstərişlərindən irəli gələrək yaradılıb. Həmçinin ötən birillik fəaliyyəti dövründə də mərkəzin xidmət prosesi Prezidentin iş üslubu əsas götürülərək daim təkmilləşdirilib. Ona görə də, bütün gədəbəylilər böyük fərəhlə bu mərkəzi Prezident İlham Əliyevin əsəri hesab edirlər”.

### Müraciətlərin 99 faizi müsbət həll edilib

Yeni binada fəaliyyətə başlayacaq olan Operativ Xidmət Mərkəzi qeyd etdiyimiz kimi, artıq bir ildir gədəbəylilərin xidmətindədir. Ötən dövr ərzində vətəndaşların qəbulu prosesi tam yeni sistem əsasında aparılıb, müraciətlərin araşdırılması və müvafiq qərarların qəbulu işi innovativ standartlara uyğunlaşdırılıb.

Rayon əhalisinə operativlik, şəffaflıq prinsipləri əsasında xidmət göstərən mərkəz sənədlərin rahat qəbul edilməsini, süründürməçilik və korrupsiya hallarının qarşısının alınmasını, həmçinin vətəndaşın eyni vaxtda və vahid məkanda rayon icra hakimiyyətinin bütün struktur bölmələri ilə ünsiyyətdə olmasını təmin edir.



Mərkəzdə yeni sistemin tətbiqi artıq ümumi işlərə öz müsbət təsirini göstərməkdədir. Ötən bir il ərzində həyata keçirilən bu layihə rayon ictimaiyyətinin məmnunluğuna səbəb olub. Vətəndaşların etimadını doğruldan mərkəzdə xidmətlərin həm sayının artırılması, həm də keyfiyyətinin daha da yüksəldilməsi nəzərdə tutulub.

Operativ Xidmət Mərkəzinə 2019-cu il ərzində 1200 (memarlıq sahəsi - 537, hüquq sahəsi - 218, iqtisadiyyat sahəsi- 319, humanitar sahə - 56, ərazi idarəetmə sahəsi - 70) müraciət daxil olub. Müraciətlərin 1188-i, yəni 99 faizi müsbət həll edilmiş, qalan 12-sinin isə müvafiq sənədləri uyğun gəlmədiyinə görə icrası mümkün olmamışdır.

Rayon sakinlərinin artıq mərkəzin fəaliyyətinin səmərəsini gördüyünü və razılıq etdiklərini söyləyənrayon icra hakimiyyətinin başçısı İbrahim Mustafayev söyləyir ki, apardığımız monitorinqlərin nəticəsinə görə, indiyədək mərkəzin fəaliyyətindən narazılıq edən olmayıb: “Buna qədər hansısa sakin, həmçinin ucqar dağ kəndində, rayon mərkəzindən xeyli uzaqda yaşayan vətəndaş müraciətinin həlli məqsədilə icra hakimiyyətinə qəbula gəldikdə, müvafiq inzibati mərhələlər keçməli idi. Yəni müraicət bir neçə şöbə tərəfindən öyrənilməli, fərqli şöbələrdən müvafiq razılaşdırılma əldə olunmalı, qərar verilmə anınadək xeyli vaxt keçməli və sakin dəfələrlə rayon icra hakimiyyətinə gəlməli olurdu. İndi isə mərkəzə təşrif buyuran vətəndaş bir gündə vaxt itkisi olmadan icra hakimiyyəti aparatının bütün şöbələri ilə dərhal birbaşa əlaqə yarada bilir və müraciəti anındaca nəzarətə götürülərək müvafiq cavab verilir. Xüsusi diqqət ayırdığımız məsələlərdən biri də əhali ilə təmasda yüksək alicənablığın, mədəniyyətin və dözümlülüyün təminidir”.

### 41 istiqamət üzrə keyfiyyətli və şəffaf fəaliyyət

Öyrənirik ki, Operativ Xidmət Mərkəzi Azərbaycan Respublikası Mülkü Məcəlləsinin, Ailə Məcəlləsinin, Şəhərsalma və Tikinti Məcəlləsinin, eləcə də digər qanunların və “Yerli icra hakimiyyətləri haqqında Əsasnamə”nin tələblərinə uyğun olaraq 41 xidmət sahəsini əhatə edir.

Bunlar - *Memarlıq və tikinti məsələləri üzrə - 16 xidmət, Hüquq məsələləri üzrə - 10 xidmət, Sosial-iqtisadi məsələlər üzrə - 7 xidmət, İnzibati Ərazi Dairələri üzrə nümayəndəliklər və bələdiyyələrlə bağlı məsələlər üzrə - 8 xidməti* əhatə edir.

Mərkəzdə rayon icra hakimiyyəti başçısının aparatında fəaliyyət göstərən hər şöbədən bir nəfər məsul işçi, ümumilikdə 7 əməkdaş vətəndaşlara fasiləsiz xidmət göstərir.

Bura müraciət edən vətəndaşlara hazır sənədlər qanunvericilikdə nəzərdə tutulmuş vaxtdan 15-25 gün əvvəl təqdim edilir. Əgər qanunvericilikdə sənədin verilmə müddəti 30 gündürsə, həmin sənəd vətəndaşa bəzən hətta 3 günə də təqdim oluna bilir.

Mərkəzdə quraşdırılmış böyük monitorda xidmət sahələrinin adları, həmin sahələrə məsul şöbələr, tələb olunan sənədlərin nümunəsi, sənədin icra müddəti, qanunvericilik bazası yerləşdirilmişdir. Burada əhalinin problemlərinin operativ həlli məqsədi ilə “qaynar xətt” (164) yaradılmışdır. Vətəndaşların şifahi müraciətləri dərhal araşdırılır və onlara lazımi kömək göstərilir.



Mərkəzdə görmə qabiliyyəti olmayan şəxslərin rahat hərəkəti üçün də imkan yaradılıb. Binaya daxil olan belə şəxslər sarı zolaqda hərəkət edərək həm gözləmə məntəqəsində əyləşə, həm də növbəsi çatanda əməkdaşlara rahat yaxınlaşa bilir.

### Əhalinin məmnunluğu artır, vaxt itkisi azalır

Operativ Xidmət Mərkəzi həftənin iş günləri saat 09:00-18:00-dək vətəndaşlara fasiləsiz xidmət göstərir. Hər bir əməkdaş telefon və bilgisayar dəsti ilə təchiz edilib, həmçinin mərkəzdə yaradılan server otağı vasitəsilə yüksəksürətli internetə çıxış təmin olunub.

Mərkəzdə xidmətlərdən istifadə qaydaları da ən müasir standartlara uyğundur. İlkin olaraq vətəndaş girişdəki xidmət terminalına yaxınlaşaraq aidiyyəti üzrə bölməni seçərək çek götürür. Xidmət terminalı avtomatik növbəlilik məyyən edir və vətəndaşın xidmət seçimində və ya xidmətlər barədə hər hansı sualı olarsa, məlumat masasına yaxınlaşaraq xidmətlərə aid əlavə məlumat da ala bilir. Növbəsi çatdığı zaman səsli olaraq vətəndaş aidiyyəti masaya dəvət olunur, xidmətlər masasında oturmuş şöbənin məsul işçisinə yaxınlaşaraq sənədlərini təqdim edir. Məsul işçi tələb olunan sənədlərin tam olmasını yoxlayıb qəbul edir və müraciətin həlli üçün qanunvericilikdə nəzərdə tutulan müddətin minumum iş gününü müəyyən edir.

Xidmətin əməkdaşı həmin sənədin icra müddətini müəyyən etdikdən sonra sənədlərin üzərinə özünəməxsus qısa lövhədə onun götürülmə tarixini qeyd edir, imzasını atır və sənədləri “sənədlərin qəbulu və verilməsi” masasına təqdim edir. Əgər sənədin alınması üçün dövlət rüsumu tələb olunursa, vətəndaşa şifrə verilir və vətəndaş mərkəzin nəzdindəki “Milli Ön” aparatında ödəniş edərək çeki əməkdaşa təqdim edir.

1 nömrəli masada əyləşən məsul işçi sənədin qeydiyyatını apararaq vətəndaşa sənədin verilməsi tarixi barədə məlumat verir. Qeyd olunan tarixdə (saat-gün) sənəd vətəndaşa (mərkəzə daxil olduğu anda bir dəqiqə ərzində) təqdim olunur. Xidmət bütövlükdə videolentə alınır və gün ərzində göstərilən xidmətlərin statistikasının serverdə avtomatlaşdırılmış qeydiyyatı aparılır.

### Könüllülük işi - könül missiyası

Son illərdə ölkəmizdə könüllülük institutunun təşviqi məqsədilə dövlət tərəfindən zəruri addımlar atılmış, normativ hüquqi baza təkmilləşdirilmiş, dövlət dəstəyi mexanizmləri formalaşdırılmış, 2020-ci il “Könüllülər ili” elan olunmuşdur.

Operativ Xidmət Mərkəzi könüllülük işini vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatı kimi qəbul edir. Mərkəzdə fəaliyyət göstərən 10 könüllü öz kreativliyi, təşəbbüskarlığı, innovativ düşüncə tərzi və müasir dünyagörüşləri ilə qoşulduqları



fəaliyyətə yeni nəfəs verir, xidmətin daim təkmilləşdirilməsində əvəzsiz rol oynayırlar.

Mərkəzdə fəaliyyət göstərən 10 könüllünün gündəlik iş prosesi də müəyyənləşdirilib. Könüllülər vətəndaşların qarşılanmasını və onları narahat edən məsələlərin dinlənilməsini həyata keçirir, müraciət edən vətəndaşlara düzgün izah verilməsini və aidiyyəti üzrə istiqamətləndirilməsini təşkil edirlər.

Müraciətlərə əsasən ərizələrin yazılması və yazılmasında köməkliyin göstərilməsi, nəzakətli davranışla əlillərə, yaşlı insanlara və imtiyazlı şəxslərə qayğı göstərilməsi, vətəndaşlar arasında sorğular keçirilməsi, onları razı və narazı salan məsələlər barədə ümumiləşdirmələr aparılması kimi məsələlər də könüllülərin öhdəsindədir. Onlar “Qaynar xətt”ə daxil olan müraciət əsasında sağlamlıq vəziyyətinə görə məhdud hərəkətli vətəndaşların hüquqlarının müdafiəsi ilə bağlı həmin şəxslərin öz ünvanlarında ilkin səndləşmə işlərinə də kömək göstərirlər.

Mərkəzdə fəaliyyət göstərən könüllülərə iki aydan sonra sertifikat verilir. Operativ Xidmət Mərkəzində könüllülərin fəaliyyəti rayon sakinlərində xoş təəssüratlar yaradır.

### Paytaxtdan məsafəcə uzaq, standartlar baxımından isə çox yaxın

Sənədlərin aşkarlıq şəraitində qəbulu və vətəndaşa təqdimi, şəffaflığın artırılması, süründürməçilik və korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi mərkəzin fəaliyyətinin əsas mahiyyətini təşkil edir. Həmçinin vətəndaşın eyni vaxtda vahid məkanda RİH-nin bütün struktur bölmələri ilə ünsiyyətdə olmasının təmin edilməsi, işgüzar mühit, açıqlıq, məmnunluq, yerli dövlət hakimiyyəti orqanlarının qapılarının vətəndaşlar üçün hər zaman açıq olması, vətəndaşların əlavə xərclərinin və vaxt itkisinin azalması bu xidmətin əsas hədəflərindəndir.

Bu məramların dövlət başçısının tələblərini ehtiva etdiyini xatırladan Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mustafayev söhbətimizdə onu da xüsusən vurğuladı ki, icra strukturlarına etimadın daha da gücləndirilməsi, vətəndaş məmnunluğunun yüksəldilməsi kimi məqamlar artıq real fəaliyyətdə ilkin uğurlu nəticələrini verir: “Vətəndaşlara keyfiyyətli və şəffaflıq prinsipləri əsasında xidmət təqdim edən mərkəzin fəaliyyəti nəticəsində əhalinin icra strukturuna inamı yüksəlir və tərəflər arasında anlaşılmayan məsələ qalmır. Bu isə əlbəttə ki, Prezidentin ümdə tələblərindən biridir”.

İbrahim Mustafayev Operativ Xidmət Mərkəzinin fəaliyyəti ilə yanaşı, digər uğurlu təşəbbüslərin də həyata keçirildiyini, Gədəbəydə vətəndaş məmnunluğunu yüksəldəcək yeni layihələrin üzərində işlədiklərini də söylədi: “Necə deyərlər, durmaq yox, yola davam... Fəaliyyət nə qədər uğurlu nəticələr versə də, bununla kifayətlənmək olmaz. Xidməti prosesi, inzibati fəaliyyəti, idarəçiliyə yanaşmaları daim yeniləməli, müasirləşdirməli, Prezidentin kamil nümunəsinə uyğun təkmilləşdirməliyik”.

Azərbaycan Prezidenti İlham Əliyev 2013-cü ildə milli brendimiz kimi “ASAN xidmət”i yaradaraq əhaliyə keyfiyyətli, operativ və şəffaf xidmət göstərilməsinin ən mükəmməl sistemini formalaşdırdı. Bu gün dünyanın müxtəlif ölkələri Azərbaycan təcrübəsindən yararlanır, eləcə də ölkəmizin müxtəlif regionlarında 16 “ASAN xidmət” məkəzi əhalinin xidmətindədir.

Yerli icra hakimiyyəti orqanları arasında ilk dəfə olaraq Gədəbəydə, xüsusən də ucqar dağ rayonu olduğunu nəzərə alaraq, yaradılan Operativ Xidmət Mərkəzi Prezident İlham Əliyevin tapşırıqlarının və tələblərinin uğurla icrasına, vətəndaş məmnunluğunun yüksəldilməsinə, əhalinin icra strukturlarına qarşı etimad və inamının artmasına böyük töhfə verəcək. Vətəndaşlara 41 istiqamət üzrə keyfiyyətli və şəffaflıq prinsipləri əsasında xidmət göstərmək məqsədinin uğurla həyata keçəcəyinə isə şübhə yoxdur. Çünki hədəf də düzgün müəyyənləşdirilib, gedilən yol da doğru seçilib.

*Gədəbəy paytaxtdan nə qədər uzaqda yerləşsə də, son dövrlərdəki böyük quruculuğu və müasir abadlığı, həmçinin elə Operativ Xidmət Mərkəzinin timsalında çoxsaylı innovativ layihələri ilə ucqar dağ rayonu imicindən vidalaşıb...*

*Gədəbəy artıq gözdən-könüldən uzaq rayon deyil, inkişaf dinamikası ilə Bakıya xeyli yaxınlaşıb...*

*Gədəbəy indi paytaxt standartlarını mənimsəmiş, vətəndaşa xidmətin yüksək nümunəsini yaratmış, sabahın aydın hədəflərini düzgün müəyyənləşdirmiş insanların məskənidir...*

***Elçin CƏFƏROV, “Azərbaycan”***

# *Elçin QULİYEV:* “Sərhədçilər Prezident İlham Əliyevin tapşırıqlarını yüksək səviyyədə icra edirlər”





Xəzər dənizində Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi üzrə xidməti-döyüş fəaliyyətinə başlanılmasının 27-ci ildönümü münasibətilə fevralın 18-də tədbir keçirilib.

Dövlət Sərhəd Xidmətinin (DSX) mətbuat mərkəzindən bildiriblər ki, tədbirdə xidmətin rəisi general-polkovnik Elçin Quliyev iştirak edib.

Dövlət himninin səslənməsi ilə başlayan tədbirdə çıxış edən Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev dənizçi sərhədçiləri təbrik edərək hələ 15 il əvvəl dənizdə dövlət sərhədlərinin mühafizəsinə xüsusi diqqət ayıran Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2005-ci il 18 fevral tarixli sərəncamı ilə DSX-nin Sahil Mühafizəsinin yaradıldığını, 2008-ci il noyabrın 8-də regionumuzda bənzəri olmayan yeni dəniz hərbi bazasının istifadəyə verildiyini, ölkəmizin dəniz sərhədlərinin mühafizəsinin keyfiyyətcə yeni mərhələyə yüksəldiyini bildirib.

Münxen Təhlükəsizlik Konfransında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən canlı debatda beynəlxalq auditoriya qarşısında Ermənistanın baş nazirinə tarix və beynəlxalq siyasət dərsi keçməklə torpaqlarımızın işğal altında qalması ilə bağlı barışmaz mövqeyini, dövlətimizin ərazi bütövlüyünün bərpa edilməsinin fundamental haqqımız olduğunu, milli dövlətçiliyimizin gücünü, qüdrətini və yenilməzliyini növbəti dəfə nümayiş etdirdiyini diqqətə çatdıran DSX rəisi bu tarixi hadisənin Azərbaycan sərhədçisinin qələbə əzmini, qəhrəmanlıq ruhunu yüksəklərə qaldırdığını xüsusilə vurğulayıb.

Xidməti-döyüş fəaliyyətinə başladıqları ilk gündən dəniz sərhədçilərinə xüsusi diqqət ayıran Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin 2013-cü il 11 sentyabr tarixli sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasının dəniz təhlükəsizliyi strategiyası”nın icrasının təmin edilməsi üzrə DSX-nin Sahil Mühafizəsinin “Gəmi inşası və təmiri mərkəzi”nin inşa edildiyini, 12 ədəd “Tufan” və “Şahdağ” tipli sərhəd gözətçi gəmisinə baxış məqsədilə Prezident İlham Əliyevin dəfələrlə DSX-nin Sahil Mühafizəsinin bazasında olmasını xüsusilə qeyd edən general-polkovnik Elçin Quliyev bu gəmilərin döyüş sıralarına qatılması sayəsində sərhəd sularında dövləti maraqlarımızın qorunması imkanlarının xeyli genişləndiyini, dəniz sərhədlərinin mühafizəsi məsələlərinə daim ali diqqətin göstərildiyini və yüksək nəticələrin əldə olunduğunu qeyd edib.

2018-ci il avqustun 12-də Xəzəryanı ölkələrin dövlət başçılarının V Zirvə toplantısında mühüm əhəmiyyət kəsb edən “Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya”nın imzalanmasını əlamətdar hadisə kimi qeyd edən Dövlət Sərhəd Xidmətinin rəisi bu sənədin dəniz sərhədlərimizin mühafizəsi üzrə xidməti fəaliyyətin yeni müstəvidə təşkil olunmasına şərait yaratdığını bildirib.

Müstəqil dövlətimizin banisi Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş Azərbaycan Respublikasının dövlət sərhədlərinin keşiyində böyük qürur hissi ilə dayanan Azərbaycan sərhədçilərinin Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən qarşıya qoyulmuş tapşırıqları ən yüksək səviyyədə icra etdiyini vurğulayan general-polkovnik Elçin Quliyev gələcəkdə də dənizçilərin göstərilən bu ali etimadı yeni nailiyyətlərlə doğruldacaqlarına əminliyini bildirib.

Tədbirdə Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin rəisi general-leytenant Əfqan Nağıyev Sahil Mühafizəsinin fəaliyyət göstərdiyi müddət ərzində dənizçi sərhədçilərin Xəzər dənizində qazandıqları yüksək nailiyyətlər haqqında məruzə edib.

Tədbirdə xidməti-döyüş fəaliyyətində yüksək nəticələr əldə etmiş bir qrup hərbi qulluqçu təltif edilib.

Sonda iştirakçılar DSX-nin nümunəvi hərbi orkestrinin və incəsənət ustalarının hazırladıqları maraqlı konsert proqramına tamaşa ediblər.

# Türkmənistan Azərbaycanla razılaşma çərçivəsində sadələşdirilmiş sistem üzrə viza verir

Türkmənistanın Dövlət Miqrasiya Xidmətinin əməkdaşları sadələşdirilmiş sistem üzrə Türkmənbaşı Beynəlxalq Hava Limanında viza verilməsini həyata keçirirlər.

AZƏRTAC xəbər verir ki, 2018-ci ilin noyabr ayında Türkmənistan ilə Azərbaycan arasında beynəlxalq və tranzit daşımaların iki ölkə ərazisindən keçməklə vizaların alınmasının sadələşdirilməsi ilə bağlı saziş imzalanıb. Bu, nəqliyyat-logistika daşımalarının inkişafına, yaxşılaşdırılmasına kömək etmək və yük daşımalarının gələcək həcminə təsir etmək məqsədi daşıyır. Qısa müddət ərzində vizaların rəsmiləşdirilməsi, yük avtomobilləri və beynəlxalq nəqliyyat sürücüləri üçün viza üzrə ölkədə minimal müddətin artırılması beynəlxalq nəqliyyat sürücülərinin cəlb edilməsinə və tranzit yük daşıyıcılarının artırılmasına kömək edir. Bu da gələcəkdə iki ölkə arasında ticari-iqtisadi əməkdaşlığın inkişafına təkan verəcək. Sadələşdirilmiş vizaların verilməsinin nəticəsi olaraq 2019-cu ildə yük avtomobillərinin axını 2018-ci illə müqayisədə 38 faiz artıb.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Yanvar ayında 6,5 milyard manatlıqdan çox ÜDM istehsal olunmuşdur



Cari ilin yanvar ayında ölkədə istehsal olunmuş ümumi daxili məhsulun həcmi əvvəlki ilin eyni ayı ilə müqayisədə 2,4 faiz artaraq 6 milyard 520,2 milyon manat təşkil etmişdir.

Dövlət Statistika Komitəsinin bu barədə yaydığı məlumatda bildirilir ki, keçən ay iqtisadiyyatın qeyri neft-qaz sektorunda əlavə dəyər 4,9 faiz artmış, neft-qaz sektorunda isə 0,7 faiz azalmışdır.

ÜDM istehsalının 44,2 faizi sənaye, 9,9 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 6,9 faizi nəqliyyat və anbar təsərrüfatı, 4,6 faizi tikinti, 2,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,6 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,9 faizi informasiya və rabitə sahələrinin, 19 faizi digər sahələrin payına düşmüşdür. Məhsula və idxala xalis vergilər ÜDM-in 8,0 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM isə 655,3 manata bərabər olmuşdur.

## Kimya sənayesində məhsul istehsalı 40,5 faiz artıb

Ötən ay Azərbaycanda 10,8 min ton propilen (ondan əmtəəlik 10,8 min ton), 10,2 min ton polietilen, 12,8 min ton etilen, 42,8 min ton metanol (metil spirti) istehsal edilib.

Dövlət Statistika Komitəsinin məlumatında bildirilir ki, ay ərzində kimya sənayesində məhsul istehsalı əvvəlki ilin yanvar ayı ilə müqayisədə 40,5 faiz artıb. Fevralın 1-nə 1,5 min ton propilen, 4,8 min ton polietilen və 6,5 min ton metanol hazır məhsul ehtiyatı kimi qalıb.

Yanvarda əsas kimya məhsullarından metanol istehsalı 42, propilen istehsalı 12,5, etilen istehsalı isə 4,1 faiz artıb.

## Bu il DMX 503 nəfəri peşə hazırlığına cəlb edib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti (DMX) tərəfindən bu ilin ötən dövründə artıq 503 nəfər işsiz və işaxtaran şəxs peşə hazırlığı kurslarına cəlb edilib.

Kurslarda iştirakçılara xidmət sahələri, İKT və kənd təsərrüfatı üzrə peşələr tədris olunur. Kursları uğurla başa vuran şəxslərə sonda sertifikat veriləcək və məşğulluqlarının təmini üçün işlər aparılacaq. Peşə hazırlığına cəlb edilən işsiz şəxslərə kurs keçildiyi dövrdə minimum aylıq əməkhaqqı məbləğində təqaüd də verilir.

Qeyd edək ki, işəgötürənlər də peşə hazırlığı kurslarının təşkilində DMX ilə əməkdaşlıq edə bilirlər. Hazırda bu istiqamətdə növbəti kurs kimi "Binə Aqro" MMC-nin sifarişi əsasında istixana operatoru peşəsi üzrə 16 nəfərin cəlb olunduğu peşə hazırlığı kursu davam edir.

Onu da bildirək ki, cari il Dövlət Məşğulluq Xidməti tərəfindən peşə hazırlığına cəlb olunanların sayının 40 faizdən çox artırılmaqla 5 minə çatdırılması nəzərdə tutulur.

## Balıqların artırılması və mühafizəsinə 2,2 milyon manatdan çox vəsait xərclənmişdir

Su hövzələrində balıq ehtiyatlarının süni yolla artırılması və bərpası, müxtəlif balıq növlərinin yetişdirilməsi, eləcə də onların mühafizəsi əhalinin ərzaq məhsulları ilə davamlı və dayanıqlı təminatına yönəlmiş tədbirlərdəndir.



Dövlət Statistika Komitəsinin son məlumatına görə, ötən il ölkədə vətəgə sahələrində balıqların artırılması və mühafizəsi işlərinin yerinə yetirilməsinə 2 milyon 268,3 min manat vəsait sərf olunmuşdur. Həmin vəsaitin 89,7 faizi süni balıqartırma müəssisələrinin fəaliyyətinə, 10,3 faizi balıqçılıq təsərrüfatları üzrə meliorasiya tədbirlərinin həyata keçirilməsi işlərinə xərclənmişdir.

## *Prezident İlham ƏLİYEV:* "Azərbaycan xalqı ildən-ilə daha yaxşı yaşamalıdır"

### "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nın təsdiq edildiyi vaxtdan 17 il keçir



**1990-cı illərin ikinci yarısından Azərbaycanda başlayan davamlı iqtisadi inkişaf özünü ilk növbədə əhalinin rifahının yaxşılaşmasında göstərdi. Belə ki, 1996-2002-ci illərdə ümumi daxili məhsul 1,7, iqtisadiyyata kapital qoyuluşu 7,8, əhalinin nominal pul gəlirləri 3, orta aylıq əməkhaqqı və pensiya 5 dəfə artdı.**

Bununla belə, hələlik ölkədə iqtisadiyyatın yüksək inkişaf səviyyəsini və əhalinin beynəlxalq standartlara uyğun həyat tərzini təmin etmək mümkün olmamışdı. Bunları nəzərə alan Ümummilli Lider Heydər Əliyev 2003-cü il fevralın 20-də "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında fərman imzaladı. Bu proqram yaxın gələcəkdə ölkədə əhalinin sosial müdafiəsini daha da gücləndirmək, yoxsulluğun səviyyəsini azaltmaq məqsədi daşıyırdı. Bununla bağlı BMT-nin 2000-ci ildə keçirilmiş "Minilliyin sammiti"ndən irəli gələn öhdəliklərin yerinə yetirilməsi üçün zəruri tədbirlərin həyata keçirilməsi təmin edilməli idi.

Xatırladaq ki, 2000-ci ilin sentyabr ayında Nyu Yorkda BMT-nin təşkilatçılığı ilə 147 ölkənin rəhbəri "Minilliyin sammiti"nə toplaşaraq Minilliyin İnkişaf Məqsədlərini (MİM) əks etdirən birgə bəyannamə imzalamışlar. Bununla da 2015-ci ilə qədər yoxsulluğun azaldılması məsələlərini özlərinin öhdəlikləri kimi bəyan etmişlər. Bəyannamədə göstərilən vəzifələri həyata keçirmək üçün 18 hədəfi və 48 göstəricini özündə əks etdirən 8 qlobal məqsəd müəyyənləşdirilmişdi. Həmin qlobal məqsədlərdin birincisi məhz ifrat yoxsulluq və aclıq içində yaşayan dünya əhalisinin sayının yarıyadək azaldılmasını nəzərdə tuturdu.

Minilliyin Bəyannaməsini Azərbaycan Respublikası adından Ulu Öndər Heydər Əliyev imzalamışdı.

Yoxsulluğun azaldılması beynəlxalq ictimaiyyət qarşısında duran ümumbəşəri problemdir. Əvvəllər yoxsulluq əsasən əhalinin gəlirlərinin səviyyəsi və onun ərzaqla təminatı ilə ölçülürdü. Lakin sonralar bu məfhum daha geniş məna kəsb etdi. Odur ki, yoxsulluğun azaldılması dedikdə eyni zamanda əhalinin istehsal resurslarından, o cümlədən torpaqdan, su ehtiyatlarından istifadə etməsi, habelə işlə təmin olunması nəzərdə tutulur. Yoxsulluğun azaldılması eləcə də əhalinin təhsil almaq, səhiyyə xidmətlərindən faydalanmaq imkanlarının genişləndirilməsi, bütün səviyyələrdə kişilərlə qadınların hüquq bərabərliyinin təmin edilməsi, infrastruktur və kommunal xidmətlərə olan ehtiyacın ödənilməsi, sanitariya və gigiyena şəraitinin, ətraf mühitin yaxşılaşdırılması deməkdir. Bir sözlə, yoxsulluğun azaldılması üçün insana layiqli həyat şəraiti təmin edilməlidir.

Bu meyarlar baxımından yanaşdıqda həmin dövrdə Azərbaycanda da yoxsulluq problemi mövcud idi və onun bir sıra özünəməxsus cəhətləri vardı. XX əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəllərində keçmiş SSRİ məkanında yaranmış siyasi böhran, çoxdan formalaşmış təsərrüfat əlaqələrinin pozulması, Dağlıq Qarabağda başlayan separatçılıq hərəkatı, Azərbaycanın bölgələrində tətillərin başlanması nəticəsində əksər müəssisələrin fəaliyyəti dayanmışdı. Həmin dövrdə respublikada ümumi daxili məhsulun istehsalı hər il orta hesabla 10-15 faiz aşağı düşür, hiperinflyasiya sürətlənirdi.

Yoxsulluğun azaldılmasına yönəldilən və 2003-2005-ci illəri əhatə edən Dövlət proqramı da məhz həmin illərin əks-sədası olan vəziyyətin aradan qaldırılmasını nəzərdə tuturdu. Bu proqramın həyata keçirilməsi nəticəsində 2003-2005-ci illərdə Azərbaycanda ümumi makroiqtisadi sabitliyin qorunub saxlanılmasına nail olundu. Dinamik iqtisadi artımın davamlılığı təmin edildi, inflyasiya və milli valyutanın məzənnəsi məqbul səviyyədə saxlanıldı. Bu da ölkədə mövcud olan sosial problemlərin, o cümlədən yoxsulluq probleminin həlli istiqamətində təsirli tədbirlərin həyata keçirilməsinə imkan yaratdı. Nəticədə 2005-ci ildə yoxsulluq səviyyəsi 2002-ci ildəki 46,7 faizdən 29,3 faizə endi. Sonrakı illərdə bu istiqamətdə nailiyyətlər daha da artırıldı və 2007-ci ilin sonunda yoxsulluq səviyyəsi 15,8 faiz təşkil etdi.

Əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində əldə olunan müsbət dəyişiklikləri davam etdirmək üçün "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" hazırlandı. Proqram Prezident İlham Əliyevin 15 sentyabr 2008-ci il tarixli sərəncamı ilə təsdiq olundu.

2003-2005-ci illərdə və 2008-2015-ci illərdə yoxsulluğun azaldılmasına yönəldilən hər iki proqram uğurla icra olundu. Onların nəticəsini Prezident İlham Əliyevin bu il fevralın 3-də "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın birinci ilinin yekunlarına həsr olunan konfransdakı nitqində səsləndirdiyi fakt və rəqəmlər də aydın göstərir: "2003-cü ildən bugünə qədər bütövlükdə Azərbaycan iqtisadiyyatı 3,4 dəfə artmışdır. Bu, dünyada rekord göstəricidir. Bütün statistik məlumatlar araşdırıla bilər, inanmıram ki, buna bənzər artım tempi olsun. Bu 16 il ərzində sənaye istehsalı 2,7 dəfə, kənd təsərrüfatı 2 dəfə, xarici ticarət dövriyyəsi 16,4 dəfə, ixrac 7,6 dəfə, o cümlədən qeyri-neft ixracı 5,2 dəfə artmışdır. Bizim valyuta ehtiyatlarımız 27 dəfə artmışdır. 2003-cü ildə valyuta ehtiyatlarımız 1,8 milyard dollar idi. Keçən ilin yekunlarına görə 51, indi isə 52 milyard dollara çatmışdır. Yəni bu, özlüyündə böyük bir göstəricidir. Yoxsulluq təxminən 50 faizdən 4,8 faizə düşmüşdür".

Hədəf isə bundan da yüksək göstəriciyə nail olmaqdır. "Azərbaycan xalqı ildən-ilə daha yaxşı yaşamalıdır," - deyir dövlətimizin başçısı.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Tibb müəssisələrində ödənişlərin nağdsız aparılması üçün bank kartı buraxılıb

İcbari tibbi sığortanın tətbiq olunduğu tibb müəssisələrində ödənişləri nağdsız qaydada həyata keçirmək məqsədilə Azərbaycan Beynəlxalq Bankı (ABB) İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə birgə bank kartları buraxıb.




Bu kartlar vasitəsilə tibb müəssisələrində müştərək maliyyələşmə məbləğini, xidmətlər zərfinə daxil olmayan tibbi xidmətlərin tarifini və s. bu kimi ödənişləri nağdsız qaydada həyata keçirmək mümkündür. Hər hansısa bank kartına sahib olmayan şəxslər kartı Azərbaycan Beynəlxalq Bankının icbari tibbi sığorta tətbiq edilən ərazilərdəki filial və şöbələrindən şəxsiyyət vəsiqələrini təqdim etməklə pulsuz ala bilərlər. Bu barədə agentliyin Marketinq və ictimaiyyətlə əlaqələr departamentindən bildirilib.

"Nağdsız hesablaşmalar haqqında" qanunun tələbinə uyğun olaraq publik hüquqi şəxs statuslu tibb müəssisələrində nağdsız ödənişlərin aparılması üçün ABB müvafiq layihə çərçivəsində onları lazımi sayda POS-terminal və ödəmə terminalları ilə təchiz edib. Vətəndaşlar tibb müəssisələrindəki ödəmə terminalı vasitəsilə sözügedən karta vəsait yerləşdirdikdən sonra ödənişlər POS-terminalla aparılır. Həmçinin ABB-nin filial və şöbələrində, "Cash in" tipli bankomatlarında, E-manat və Azericard ödəmə terminalları və "Card to card" vasitəsilə də bu karta vəsait mədaxil etmək mümkündür. Bank kartı əhaliyə gələcəkdə tibb sahəsində digər xüsusi imtiyazlardan, əlavə güzəştlərdən faydalanmaq imkanı da yaradacaq.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev Azərbaycanın səhiyyə sisteminin nağdsız ödənişlərə keçidində bu kartların mühüm yenilik olduğunu qeyd edib: "Bank kartı tibb müəssisələrində nağdsız qaydada ödənişlərin aparılmasına imkan yaradacaq. Nağdsız hesablaşmaların aparılması tibb müəssisələrində maliyyə dövriyyəsinin şəffaflığını artıracaq və hesabatlılığı təmin edəcək".

Azərbaycan Beynəlxalq Bankının İdarə Heyətinin sədri Abbas İbrahimov: "Bu bank kartları icbari tibbi sığortanın ölkəmizdə uğurla tətbiqinə töhfə verəcək. Yaxın gələcəkdə bir sıra aptek şəbəkələri, səhiyyə infrastrukturu ilə əlaqəli digər sahələr də bu kartlarla ödəniş sisteminə cəlb ediləcək. Beləliklə, bu sferada nağdsız ödənişlərdən geniş istifadə üçün əlverişli ekosistem formalaşacaq. Vətəndaşlar bu kartlarla ödəniş zamanı keşbək faizləri qazanacaqlar. Bununla da tibbi xidmətə görə xərclərinə müəyyən qənaət etmiş olacaqlar. Bütün bunlar ölkəmizdə nağdsız ödənişlərin tendensiyasını genişləndirəcək".

## Külək enerjisi köməyə gəlir



*Ötən ay Azərbaycandakı külək elektrik stansiyalarında 7,2 milyon kilovat/saat elektrik enerjisi istehsal olunub.*

Dövlət Statistika Komitəsinin açıqladığı məlumata görə, yanvarda ölkədəki günəş elektrik stansiyalarında isə 2,2 milyon kilovat/saat elektrik enerjisi istehsal edilib.

## Paytaxtın ictimai nəqliyyatı onun bugünkü müasir şəhər statusuna uyğun olmalıdır

Bakının dünyanın ən müasir və gözəl şəhərlərindən birinə çevrilməsi hamıya bəllidir. Bu günlə 15-20 il əvvəlki təkcə şəhər nəqliyyatını müqayisə edəndə fərqlər aydın qabarır. Yəqin çoxunun yadındadır ki, sınıq-salxaq mikroavtobuslar şəhərin yollarında az qala cıdır yarışına çıxardı, dayanacaqlardakı avtobusların hərəsinin qapısından bir uşaq sallanıb boğazını yırtaraq adamları "beşmərtəbə"yə, Əhmədliyə, Bayıla və digər istiqamətlərə haraylardı.

Ancaq Azərbaycan Prezidentinin islahatçı ruhu, yeniliklərə açıq olması bütün sahələr kimi, həlli qəliz bu məsələnin də yolunu tapmağa imkan verdi. Cəmi 5-10 il ərzində şəhər nəqliyyatının simasının büsbütün dəyişməsi buna sübutdur.

Dövlət başçısı Bakı Nəqliyyat Agentliyi İdarə Heyətinin sədri Vüsal Kərimlini qəbul edərkən səhər nəqliyyatı sistemində uğurlardan danışsa da, nailiyyətlərlə kifayətlənməməyi tövsiyə etdi: "Son beş il ərzində şəhərimizə yüzlərlə yeni avtobus gətirilib. Bu avtobusların hamısı dünyanın aparıcı şirkətlərinin istehsalıdır. Bu, bizim şüurlu seçimimizdir. Çünki Bakıda ən müasir texnologiyalar tətbiq edilməlidir, o cümlədən nəqliyyat vasitələrinin dünyanın ən yüksək standartlarına cavab verməsi əsas şərtlərdən biridir. Onu da bildirməliyəm ki, beş il bundan əvvəl Bakıya gətirilmiş ilk xarici istehsal olan avtobuslar hətta o avtobusların istehsal olunduğu ölkələrdə hələ xətlərə çıxmamışdı".

Bəli, bu gün səhər nəqliyyatının müasir simasını formalaşdıran məhz Prezidentin qoyduğu tələblər, reallaşdırdığı islahatlardır. Hər il dövlət büdcəsindən bu sahəyə kifayət qədər vəsait ayrılır və şəhərə orta hesabla 300 avtobus gətirilərək istismara verilir. Eyni zamanda bir çox şirkətlər bu istiqamətdə önəmli addımlar atır.

Ümumiyyətlə, 5 il ərzində şəhərin ictimai nəqliyyat parkında 855 avtobus yenilənmişdir. Onlardan 600-ü dövlət başçısının göstərişinə əsasən, 2950-i isə daşıyıcılar tərəfindən paytaxta gətirilmişdir. Bununla paytaxtın avtobus parkının 40 faizə yaxını yenilənmişdir. Amma bu, kifayət deyil. Bundan sonra da hər il şəhərə 300 avtobus gətiriləcək və yaxın 3 ildə parkın yenilənməsi 100 faizə çatdırılacaq. Onu da qeyd edək ki, paytaxta gətirilən yeni avtobuslar ətraf mühitə daha az zərər verən sıxılmış təbii qazla (STQ) işləyir. Müqayisə üçün bildirək ki, Vyanada STQ ilə işləyən avtobuslar ümumiyyətlə yoxdur, Berlində bu istiqamətdə pilot layihəsi yeni tətbiq edilir, Moskvada 6475 avtobusdan cəmi 319-u, İstanbulda 3070 avtobusdan 239-u sıxılmış təbii qazla işləyir. Azərbaycan paytaxtında isə bu göstərici 600 avtobusdur.

Sözügedən qəbulda müzakirə olunan məsələlərdən biri də sərnişinlərin daha az vaxtda mənzilbaşına rahat və təhlükəsiz çatmasının vacibliyi oldu. Qeyd olundu ki, avtomobillərin yolda qanunsuz park etmələri, bəzən isə avtobus dayanacaqlarını taksilərin zəbt eməsi ciddi narahatlıq yaradır. Halbuki Bakı kimi meqapolislərdə yeni şəhər mədəniyyətinin formalaşması, yeni ənənələrin təşəkkül tapması vacibdir. Yəni heç kim başqa ölkələrin paytaxt şəhərlərində olduğu kimi, avtomobillərini istədikləri yerlərdə park edə bilməz. Gün ərzində 2 milyon 200 sərnişinin daşındığı Bakıda da qaydalara əməl etmək hər bir kəsin borcudur.

Dövlət başçısı son illər Bakıda tikilmiş körpülərin və yol qovşaqlarının bəlkə də misli-bərabəri olmadığını məxsusi vurğulasa da, şəhər nəqliyyatının əhali artımına uyğun şəkildə inkişaf etməsinin vacibliyini də qeyd etdi: "Odur ki, bundan sonra metro tikintisi, yeni qovşaqların inşası, Bakı dairəvi dəmir yolunun çəkilişinin başa çatdırılması, avtobus nəqliyyatının səmərəli fəaliyyəti - bütün bu nəqliyyat seqmentləri vahid bir mexanizm kimi işləməlidir". Prezident vurğuladı ki, prinsip etibarilə elə bir avtobus xidməti olmalıdır ki, hətta şəxsi nəqliyyat vasitəsi olan insanlar da şəhər nəqliyyatı ilə hərəkət etməyə üstünlük versinlər: "Ona görə həm iki ildən sonra Azərbaycanda istehsal olunacaq "Avro-5" markalı benzinin bazara daxil olması bu sahədə çox böyük irəliləyişə səbəb olacaq, eyni zamanda, sıxılmış qazla və elektrik enerjisi ilə işləyən avtobusların ölkəmizə gətirilməsi, bunun üçün müvafiq infrastrukturun yaradılması zəruridir".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## Kürdəmir-Zərdab yolunun yenidən qurulması bu il yekunlaşacaq



Respublika əhəmiyyətli Ağsu-Kürdəmir-Bəhrəmtəpə avtomobil yolunun 53-cü kilometrliyindən ayrılan Zərdab avtomobil yolunun yenidən qurulması davam edir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin yaydığı məlumatda bildirilir ki, 42 kilometrlik avtomobil yolu uzun illər təmir olunmadan istifadə edildiyindən və təbii faktorların təsirindən asfalt-beton örtüyündə aşınmalar, torşəkilli çatlar və bəzi hissələrdə çökmələr əmələ gəlmişdi. Bu problemlərin aradan qaldırılması üçün ölkə rəhbərinin imzaladığı sərəncamdan dərhal sonra yolun yenidən qurulmasına başlanılmışdır.

35 min nəfər əhalinin yaşadığı 24 yaşayış məntəqəsini birləşdirən Zərdab avtomobil yolunda aparılan torpaq işləri artıq yekunlaşmaq üzrədir. Yolboyu yeni yol yatağı inşa edilib. Bunun üçün yolun köhnə asfalt-beton örtüyünün üst qatı frezlənərək kənara daşınıb, zəruri olan yerlərdə yararsız qrunt qazılaraq çıxarılıb, əks-dolğu işləri görülüb. Ardınca layihədə nəzərdə tutulan tədbirlər həyata keçirilir. Mövcud suötürücü borular sınmış və ya çökərək yararsız vəziyyətdə olduğundan aparılan işlər çərçivəsində müxtəlif diametrli yeni suötürücü borular, həmçinin kollektor su keçdiləri inşa olunur. Yol əsası hazır olan hissələrdə isə əlaqələndirici bitum səpilməklə yola asfalt-beton örtüyü döşənir.

Layihənin sonunda avtonəqliyyat vasitələrinin hərəkətinin normal təşkili üçün siqnal dirəkləri, kilometr göstəriciləri, yol nişanları və məlumatverici lövhələr quraşdırılacaq, yol xətlənməsi işləri aparılacaq, yol birləşmələri təmir ediləcək, 41 avtobus dayanacağı qurulacaq.

Bu tədbirlərin icrası ilk növbədə sözügedən marşrutlar üzrə yaşayan əhalinin rahatlığını təmin edəcək, onların mənzilbaşına təhlükəsiz çatmalarına imkan yaradacaq. Eyni zamanda, yolların bu cür müasir səviyyəyə çatdırılması təkcə yol üzərində olan kəndləri deyil, ümumilikdə həmin rayonun sosial-iqtisadi inkişafına töhfə verəcək və yolboyu yerləşən yaşayış məntəqələrində sakinlərə əlavə iqtisadi imkanlar açacaq.

Respublika əhəmiyyətli Ağsu-Kürdəmir-Bəhrəmtəpə avtomobil yolunun 53-cü kilometrliyindən ayrılan Zərdab avtomobil yolunun yenidən qurulması ilə Kürdəmir və Zərdab rayonları arasında nəqliyyat əlaqəsinin yaxşılaşması, bu ərazidə yaşayan vətəndaşların rahat hərəkətinin təmin edilməsi, kənd təsərrüfatının inkişafının sürətləndirilməsi mümkün olacaq.

## Yerli şirkətlərin məhsullarından ibarət sərgi işə başlayır

Bu gündən fevralın 22-dək Bakı İdman Sarayında yerli məhsulların və xidmətlərin tanıdılması məqsədilə "Partners and Business" sərgisi keçirilir.

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) bildiriblər ki, KOBİA-nın Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının, "Kapital Bank" və "Marsol" MMC-nin birgə təşkilatçılığı ilə keçiriləcək sərgidə sənaye, kənd təsərrüfatı, qida, informasiya-kommunikasiya texnologiyaları, təhsil, inşaat, logistika və digər sahələrdə yerli şirkətlər tərəfindən istehsal olunan məhsul və xidmətlər təqdim edilir.

Ümumilikdə 150-dək şirkətin iştirak etdiyi sərginin təşkilində məqsəd Azərbaycan şirkətlərinin daha geniş tanıdılması, bazarlara çıxış imkanlarının genişləndirilməsi, yerli şirkətlər arasında biznes tərəfdaşlığının inkişaf etdirilməsi, yeni əməkdaşlıq əlaqələrinin qurulmasıdır.

# REGİONLAR



Dövlət proqramlarının uğurlu icrası nəinki paytaxt Bakının, eləcə də kənd və qəsəbələrimizin simasını tamamilə dəyişmişdir. Bunu Qazax rayonunun timsalında da görmək olar.








## Qazaxda əhalinin işlə təminatı yaxşılaşır







Rayonda işsizliyi aradan qaldırmaq, əhalinin güzəranını yaxşılaşdırmaq da daim diqqətdə saxlanılır. Bu məqsədlə yerli və xarici investorlar rayona cəlb edilməklə yeni müəssisələrin yaradılmasına nail olunur. Məsələn, “Saloğlu” fərdi mebel firması istifadəyə veriləndən sonra burada 300 nəfərədək sakinin məşğulluğu təmin edilmişdir. Başqa bir misal. “Azərxalça” ASC tərəfindən xalça müəssisəsi, “Mətanət A” şirkətinin inşa etdiyi əhəng zavodu, İkinci Şıxlı kəndində “İnvestel GROUP” MMC-nin inşa etdiyi Aqropark, “Gedik-Carçı Qaynaq” LTD şirkətinin inşa etdiyi “Gedik-Carçı” Elektrod Zavodu yeni iş yerlərinin yaradılması baxımından böyük əhəmiyyət daşıyır.

İşsizliyin aradan qaldırılmasında kənd təsərrüfatının inkişaf etdirilməsi, əkin sahələrinin ildən-ilə genişləndirilməsi də mühüm rol oynamışdır. 2016-cı ildə cəmi 10 hektarda tütün yetişdirən rayon sakinləri 2017-ci ildə 50 hektarda, 2018-ci ildə 60 hektarda, 2019-cu uldə 65 hektar sahədə tütün əkmişlər.

Kartofçuluqla məşğul olan sakinlər də həm əkin sahələrini, həm də məhsuldarlığı ildən-ilə artıraraq yaxşı qazanc əldə edirlər. Əgər 2016-cı ildə rayonda 10 min 205 ton kartof tədarük olunmuşdusa, 2017-ci ildə 22 min ton, 2018-ci ildə 29 min 865 ton məhsul əldə edilmişdir. Keçən il sahibkarlar və sakinlər əkin sahələrini genişləndirərək məhsul istehsalını daha da artırmışlar.

Rayonda əhalinin işlə təminatında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin nəzdində yaradılan “DOST İş Mərkəzi” MMC-nin də rolu böyükdür. Həmin mərkəz tərəfindən Qazax rayonu üzrə 420 nəfərin işlə təminatı həll edilmişdir.

Rayonda sosial məsələlərin də həllinə ciddi diqqət yetirilir. “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın həyata keçirilməsi üzrə hazırlanmış tədbirlər planında 145 çarpayılıq mərkəzi rayon xəstəxanasının tikintisi nəzərdə tutulmuşdu. Artıq xəstəxana demək olar ki, hazırdır. Elektrik enerjisi və mavi yanacaqla bağlı heç bir problem yoxdur.

Dövlət proqramında əksini tapan digər məsələlərdən biri də rayonda 11 məktəb binasının əsaslı təmiridir. Həmin məktəblərdən biri - Xalq yazıçısı İsmayıl Şıxlının adını daşıyan 1176 şagirdyerlik Kosalar kənd tam orta məktəbi Heydər Əliyev Fondu tərəfindən təmir edilir. Qaymaqlı və Sarıvəlli kənd tam orta məktəblərində də əsaslı təmir işlərinə başlanılmışdır.

Rayon sakinlərinin içməli su probleminin həll istiqamətində də xeyli iş görülmüşdür. Qazaxbəyli, Ürkməzli, Xanlıqlar, Alpout, Kəmərli, Orta Salahlı, Daş Salahlı, Bala Cəfərli, Ağköynək, Qarapapaq, Çaylı, Bala Çaylı kəndlərində bu məsələ öz həllini tapmışdır. “Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya olan tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında” ölkə rəhbərinin 12 fevral 2019-cu il tarixli sərəncamı bu sahədə görülən işlərə təkan vermişdir.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

## Qayğı işə həvəsi artırır



Ölkə rəhbərinin kənd təsərrüfatında ənənəvi sahələrin inkişafı ilə bağlı verdiyi tapşırıq və tövsiyələr Tərtər rayonu sakinlərinin də fəaliyyətini istiqamətləndirən mühüm amil olmuşdur. Onlar fədakarlıq göstərərək kənd təsərrüfatı məhsulları istehsalını ildən-ilə artırırlar. Pambıqçılıq sahəsində qazanılan nailiyyətlər isə xüsusilə ürəkaçandır.

Keçən il 3427 hektar sahədə pambıq əkilib-becərilmiş, bir çox çətinliklərə baxmayaraq, rayon ölkədə öncül mövqeyə çıxmış, təcrübə məktəbi yaranmışdır. Başqa sözlə, hər hektarın orta məhsuldarlığı 34,8 sentnerə çatmış, 12 min ton pambıq tədarük edilmişdir. Bu gəlirli sahə rayon iqtisadiyyatının inkişafına əhəmiyyətli təsir göstərir, eyni zamanda kənd əhalisinin faydalı məşğulluğunu təmin edir. Ötən il pambıqçılıq təsərrüfatlarında çalışanların sayı 4 min nəfərə yaxın, əldə edilən gəlir isə 8 milyon manat olmuşdur.

Prezident İlham Əliyev bu nailiyyəti pambıq mövsümünün yekunlarına həsr olunmuş respublika müşavirəsində yüksək qiymətləndirərək demişdir: “Tərtərdə pambıqçılıq sahəsində əldə edilmiş təcrübə öyrənilməlidir. Doğrudan da, çox böyük işlər görülübdür. Nəzərə almalıyıq ki, bu, düşmənlə üz-üzə yerləşən rayondur və tərtərlilər həmişə öz qəhrəmanlığını, vətənə bağlılığını göstərmişlər. 2016-cı ilin Aprel döyüşləri zamanı tərtərlilər hamı bir nəfər kimi öz torpaqlarını müdafiə etməyə qalxmışdılar. Bir nəfər də yerindən tərpənmədi. Bu, böyük qəhrəmanlıq və vətənə olan bağlılıqdır. Belə ağır vəziyyətdə işləmək və yüksək nəticələr əldə etmək doğrudan da yüksək qiymətə layiqdir. Onu da biz yaxşı bilirik ki, bədnam qonşular Tərtərin suyunu da kəsiblər. Ona görə bu ağır vəziyyətdə, demək olar ki, susuz bir vəziyyətdə belə yüksək məhsuldarlığı əldə etmək, əlbəttə ki, böyük hünərdir”.

Tərtər Subartezian Quyularının İstismarı İdarəsinin kollektivi də məmnundur ki, qazanılan nailiyyətlərdə onların da əməyi var. Dövlət başçısının qeyd etdiyi kimi, bədnam qonşularımız illərdən bəri işğal altında saxladıqları Sərsəng su anbarından su buraxmamaqla rayon ərazisində əkinlərin suvarılmasında ciddi problemlər yaradırlar. Odur ki, ümid subartezian quyularına qalır. Dövlət qayğısının göstəricisidir ki, rayon ərazisindəki mövcud 518 subartezian quyusunun 150-si məhz son illər qazılmışdır. Onların 13-ü keçən ilin payına düşür.

Bundan əlavə, ötən il qəzalı vəziyyətdə olan 4 subartezian quyusunun iş rejimi yenidən bərpa olunmuş, 207 subartezian quyusunun nasosları əsaslı təmir edilmiş, 37-sinin nasosları yenisi ilə əvəzlənmişdir. Xidmətimizdə olan 13.500 hektar əkin sahəsinin sudan korluq çəkməməsi üçün kollektivimiz, demək olar ki, il boyu gücləndirilmiş iş rejimi şəraitində çalışır. Onu da qeyd edim ki, “Meliorasiya və Su Təsərrüfatı” Açıq Səhmdar Cəmiyyəti hər bir müraciətimizə həssas yanaşır, idarəni zəruri mal-materiallarla, ehtiyat hissələri ilə təmin edir.

İndi təsərrüfatlarda qış aratının qızğın çağıdır. Yenə də kollektivimizin qayğılı günləridir. Yeni ilin nailiyyətlərinə indidən etibarlı bünövrə qoymaq, aqrotexniki tələblərə ciddi əməl etmək mühüm şərtdir. Kollektivimiz də bu əhvali-ruhiyyə ilə çalışır.

***Əli ƏLİYEV,***
***Tərtər Rayon Subartezian Quyularının İstismarı İdarəsinin rəisi***

## Qüvvələr yeni vəzifələrin icrasına yönəlib



Keçən il İmişli rayonunun sosial-iqtisadi inkişafında müsbət nəticələr əldə olunmuşdur. İlkin hesablamalara görə, rayon üzrə 621,5 milyon manatlıqdan çox məhsul istehsal edilmiş və xidmət göstərilmişdir ki, bunun da 20,8 faizi kənd təsərrüfatı, 56,6 faizi sənaye, 12,7 faizi ticarət və ictimai iaşə, 1,3 faizi nəqliyyat, 8,5 faizi tikinti, 0,1 faizi rabitə sahələrinin payına düşür.

İmişli əsasən aqrar rayon olsa da, bu gün istehsal olunan sənaye məhsullarının xüsusi çəkisi ümumi məhsul buraxılışında üstünlük təşkil edir. Təkcə 2019-cu ildə 351,9 milyon manatlıqdan çox sənaye məhsulları istehsal edilmişdir ki, bunun da 96,5 faizi qeyri-dövlət sektoruna aiddir.

Son illər rayonda taxılçılıq əsas bitkiçilik sahəsi kimi qalmaqdadır. Belə ki, 2019-cu ilin məhsulu üçün 19038 hektar sahədə taxıl səpini aparılmışdır. Həmin sahənin 6322 hektarını arpa, 12716 hektarını buğda sahələri təşkil etmişdir. Bundan əlavə, təsərrüfatlarda 176,8 hektar sahədə kartof, 178 hektarda tərəvəz, 1411,5 hektarda yonca, 917,6 hektarda şəkər çuğunduru, 7492,3 hektarda pambıq, 5 hektarda darı, 3 hektarda çəltik, 164 hektarda dən qarğıdalı, 13 hektarda günəbaxan və 255,5 hektarda bostan məhsulları əkilmişdir. Əkinçilik və heyvandarlıq məhsulları istehsalına dair proqnozlar icra edilmişdir.

Rayonda kənd təsərrüfatının inkişafı ilə yanaşı abadlıq, tikinti, quruculuq işlərinə də xüsusi diqqət verilir. Ötən il İmişli şəhərində 48 mənzilli yeni yaşayış binası tikilmiş, əsas küçələrə yeni asfalt döşənmiş, Muradxanlı kəndində modul tipli, Aranlı və Qızılkənddə tam orta məktəb binalarının inşası yekunlaşmışdır.

Əhalinin fasiləsiz və etibarlı elektrik enerjisi ilə təchizatının yaxşılaşdırılması üçün xətlərdə yenidənqurma işləri aparılmış, istismar müddətini başa vurmuş dayaq və naqillər təzələnmiş, yeni güc mərkəzləri yaradılmışdır. Təbii qazla təchizata gəldikdə, keçən il 985 yeni fərdi ev, 13 qeyri-əhali sektoru qazlaşdırılmış, 39 yaşayış məntəqəsinin tam qazlaşdırılması təmin edilmişdir. Bundan əlavə, şəhərin bir neçə küçəsində və kəndlərdə fərdi qaztənzimləyici, siyirtmə və digər qurğular quraşdırılmış, qaz xətlərində isə təmir işləri aparılmışdır. İmişli şəhərinin bütün küçə və məhəllələri içməli su ilə də təmin olunmuşdur. Lakin kanalizasiya sisteminin quraşdırılması işləri davam edir.

2019-cu ildə sosial-iqtisadi inkişafın yekunlarının nəticələri göstərir ki, rayonda iqtisadiyyatın əsas sahələrinin inkişafı təmin edilmiş, abadlıq-quruculuq işləri həyata keçirilmiş, qarşıya qoyulan vəzifələrin icrası istiqamətində çoxsaylı müsbət göstəricilər əldə olunmuşdur. İndi qüvvələr yeni vəzifələrin icrasına yönəlib.

***Lazım QULİYEV,***
***“Azərbaycan”***

## Etilen-polietilen zavodu yenidən qurulur

“Azərikimya” İstehsalat Birliyinin Etilen-polietilen zavodunda elektrik təchizatı sistemi və köməkçi qurğular təkmilləşdirilir, texnoloji proseslər avtomatik idarəetmə sisteminə keçirilir. Bu, “Azərikimya” İB-də əsas məhsulların istehsalını iki dəfə, bəzi məhsulların istehsalını üç dəfə artırmağa imkan verəcəkdir.







Layihənin məqsədi Sumqayıt Kimya Sənaye Parkında inşa olunan yeni “SOCAR Polymer” kompleksinin zavodlarını dayanıqlı rejimdə etilen, propilen, saf hidrogen və enerji daşıyıcıları ilə təmin etməkdir. Layihənin icrası sayəsində zavodun istismar dövrü azı 20 il uzadılacaq, qurğuların etibarlılığı və səmərəliliyi artırılacaqdır.

Xatırladaq ki, inşaat işləri 2017-ci ildə başlanıb. Tikinti və montaj işlərinə əsasən Sumqayıt şəhərindən və ətraf regionlardan 2000 nəfərdən çox mütəxəssis cəlb olunub.

Yenidənqurma və modernləşdirmə layihəsinə baş podratçı qismində Technip FMC şirkətinin İtaliya və Benilyuks ofisləri cəlb olunub. Tikinti-quraşdırma işləri SOCAR-ın birgə müəssisəsi “Azfen” və Türkiyənin “Üstay” şirkətlərinə həvalə olunub. Ümumilikdə layihəyə dünyanın təxminən 50 ölkəsini təmsil edən 50-dən çox istehsalçı və podratçı şirkət cəlb edilmişdir.

“Azərikimya” İB və Dünya İqtisadi Forumu tərəfindən dünyanın ən çox rəqəmsallaşan 18 şirkəti sırasına daxil edilmiş SOCAR-ın Türkiyədəki analoji müəssisəsi olan “Petkim Petrokimya Holding A.Ş.” arasında əməkdaşlıq haqqında saziş də imzalanıb. Yeni qurğuların idarəetmə mexanizmlərini dərindən mənimsəmələri üçün istehsalçı şirkətlər gənc mühəndislərə təlimlər keçir, onları “Petkim Petrokimya Holding A.Ş.”yə ezam edir.

Etilen-polietilen zavodunda həyata keçirilən digər iri layihə buxar turbogenerator qurğusunun tikintisidir. Layihə başa çatdırıldıqdan sonra “Azərikimya” İB enerji tələbatını öz imkanları hesabına ödəməklə bərabər, SOCAR-ın digər müəssisələrinə və Sumqayıt şəhərinin digər istehlakçılarına elektrik enerjisi verməyə imkan yaranacaqdır. Hər iki layihənin cari ilin 3-cü rübündə yekunlaşması nəzərdə tutulur.

“Azərikimya” İB SOCAR-ın tərkibinə daxil edildikdən sonra Sumqayıt əhalisi üçün bir sıra mühüm sosial layihələr də həyata keçirmişdir. Şirkətin dəstəyi ilə “Kimyaçı” poliklinikası və Təcili Tibbi Yardım Mərkəzi yaradılmış, müasir tibb avadanlıqları ilə təchiz edilərək sakinlərin xidmətinə verilmişdir. Ötən il 17 saylı “Gül” uşaq bağçasında əsaslı təmir və yenidənqurma işləri aparılıb. Cüdo Təlim İdman Mərkəzinin binası və “Kimyaçı” mədəniyyət sarayı SOCAR-ın dəstəyi ilə əsaslı təmir olunub.

“Azərikimya” İB-nin əməkçiləri şəhərin məhəllə və mikrorayonlarını abadlaşdırmış, bir sıra məktəb və bağçaları təmir etmiş, şəhərin sənaye zonasında minlərlə ağac əkmişlər.

***Akif ƏLİYEV,***
***“Azərbaycan”***









# Yeni Azərbaycan Partiyası AMEA ərazi partiya təşkilatının ilk konfransı keçirilib

Fevralın 19-da Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) Yeni Azərbaycan Partiyası (YAP) ərazi partiya təşkilatının ilk konfransı keçirilib.



AMEA-dan AZƏRTAC-a bildirilib ki, tədbiri giriş sözü ilə açan akademik Ramiz Mehdiyev konfransın keçirilməsində məqsədin YAP AMEA ərazi təşkilatının İdarə Heyətinin üzvləri, sədri və müavinlərinin seçilməsindən ibarət olduğunu söyləyib.

Akademik Ramiz Mehdiyev əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş partiyanın müstəqil dövlətimizin qurulması və möhkəmlənməsində, ölkəmizin sosial-iqtisadi inkişafında əvəzsiz xidmətləri olduğunu bildirib, AMEA-da da ərazi təşkilatlarının yaradılmasının xüsusi əhəmiyyət daşıdığını qeyd edib. AMEA-nın, demək olar ki, bütün elmi müəssisələrində YAP ərazi partiya təşkilatlarının fəaliyyət göstərdiyini deyən akademik Ramiz Mehdiyev bunun akademiya kollektivinin, alimlərin ölkə başçısı İlham Əliyevin siyasətini dəstəkləməsinin göstəricisi olduğunu vurğulayıb.

Sonra YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov çıxış edərək konfransın təşkilinə görə AMEA rəhbərliyinə minnətdarlığını bildirib. Qeyd edib ki, ölkəmizdə ən qabaqcıl partiyalardan biri olan YAP 1992-ci ildə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi və tanınmış ziyalıların iştirakı ilə yaradılıb. Təsis olunduğu vaxt cəmi beş yüz üzvü olan partiyanın sıralarında bu gün səkkiz yüz min nəfər cəmləşib. Bir neçə il əvvəl AMEA əməkdaşlarının cəmi altı faizi YAP-ın üzvü olub. Hazırda akademiya əməkdaşlarının 21 faizi partiyanın üzvüdür. YAP AMEA-nın regionlarda fəaliyyət göstərən qurumlarında da təmsil olunur. Qarşıda duran işlər haqqında məlumat verən Tağı Əhmədov AMEA ilə əlaqələrin daha da genişləndiriləcəyinə, partiya üzvü olan akademiya əməkdaşlarının sayının daha da artacağına inamını ifadə edib, gələcək fəaliyyətlərində onlara uğurlar arzulayıb.

Tədbirdə çıxış edən AMEA-nın birinci vitse-prezidenti, akademik İsa Həbibbəyli AMEA-da YAP ərazi partiya təşkilatlarının yaradılmasına 2013-cü ildən başlandığını bildirib. Qeyd edib ki, həmin vaxt akademiya əməkdaşlarının çox az hissəsi partiya üzvü olub. Son dövrlər AMEA-da bu göstəricinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılıb, bir sıra elmi müəssisələrdə ərazi təşkilatları yaradılıb. O, akademik Ramiz Mehdiyevin AMEA prezidenti seçildikdən sonra bu işlərin daha da sürətləndiyini və bütün müəssisələrdə ərazi təşkilatlarının fəaliyyət göstərdiyini deyib. Bir ay əvvəl AMEA Rəyasət Heyəti ərazi təşkilatının təsis olunduğunu deyən akademik İsa Həbibbəyli qısa müddətdə onlarla əməkdaşın partiya üzvü olmaq üçün müraciət etdiyini söyləyib.

Akademik İsa Həbibbəyli AMEA-da YAP ərazi təşkilatının ilk konfransının keçirilməsinin böyük əhəmiyyətə malik olduğunu bildirib. Vurğulayıb ki, bu, akademiya kollektivinin bir araya gəlməsinə, dövlətçilik, azərbaycançılıq naminə daha da səylə çalışmasına böyük töhfə verəcəkdir.

Tədbirdə AMEA-nın elmi müəssisələri üzrə ərazi təşkilatlarının sədrləri çıxış edərək konfransın əhəmiyyətindən danışıblar.

Daha sonra səsvermə yolu ilə YAP AMEA ərazi təşkilatının İdarə Heyətinin 15 nəfərdən ibarət tərkibi seçilib. Namizədlikləri irəli sürülən biologiya üzrə fəlsəfə doktoru Ulduzə Qurbanova səs çoxluğu ilə təşkilatın sədri seçilib. Fizika üzrə fəlsəfə doktoru Famin Salmanov, tarix üzrə fəlsəfə doktoru İlqar Niftəliyev və biologiya üzrə fəlsəfə doktoru Samirə Bağırova isə sədr müavinləri seçiliblər.

# Tarix İnstitutunun kitabxanası zənginləşir

Fevralın 19-da Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunda Azərbaycan Milli Kitabxanasının son illərdə nəşr olunan kitablarının elmi müəssisəyə təqdimetmə mərasimi keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbiri giriş sözü ilə açan Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov Prezident İlham Əliyevin təşəbbüsü, çağırışları və tapşırıqları əsasında son illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunda 500-ə yaxın tədqiqat əsərinin nəşr olunduğunu qeyd edib. O bildirib ki, institutun arxivi Azərbaycanın ən zəngin fondlarından biridir. Elmi müəssisəyə Paris, London, Berlin, Dehli, Moskva, Sankt-Peterburq, İstanbul, Ankara və digər yerlərdən minlərlə arxiv sənədi gətirilib.

Akademik diqqətə çatdırıb ki, Tarix İnstitutu Milli Kitabxana ilə sıx əməkdaşlıq edir.

"Hər il Tarix İnstitutunda çap olunan kitablar Milli Kitabxanaya təqdim edilir, kitabxana da onları dünya kitabxanalarına çatdırır. İnstitutda Qarabağın, İrəvanın, Naxçıvanın, habelə soyqırımlarının və itirilmiş torpaqların tarixi araşdırılaraq tarixi həqiqəti əks etdirən əsərlər yazılıb. Elmi müəssisə əsərlərin xarici dillərdə nəşr olunmasını və dünya ölkələrində yayılmasını diqqət mərkəzində saxlayır", - deyə akademik Yaqub Mahmudov qeyd edib.

Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov vurğulayıb ki, Milli Kitabxana nəinki Qafqazda, hətta Avropada və bütün dünyada ən böyük kitabxanalardan biridir. O bildirib ki, Milli Kitabxana dünyanın 70-ə yaxın kitabxanası ilə əməkdaşlıq edir. Beynəlxalq mübadiləyə əsasən kitabxana il ərzində 1600-dən çox kitab qəbul edir. Kitabxana da Azərbaycanı dünyada təbliğ etmək məqsədilə dünya kitabxanalarına nəşrlər göndərir.

"Çalışırıq ki, mübadilə zamanı tarix kitablarına xüsusi diqqət ayıraq. Tarix İnstitutunun xarici dillərdə nəşr olunan kitablarının kitabxanamıza təqdim edilməsi bizim bu sahədə işlərimizə böyük töhfədir. Kitabxanamız bir il ərzində 10-dan çox beynəlxalq kitab sərgisində iştirak edir", - deyə professor Kərim Tahirov bildirib.

Akademik Nizami Cəfərov çıxışında Tarix İnstitutu ilə Azərbaycan Milli Kitabxanasının əməkdaşlığını yüksək qiymətləndirib. Diqqətə çatdırıb ki, Tarix İnstitutu Azərbaycan tarixini araşdıran, real tarixi faktları dünyaya çatdıran və gələcək nəsillərə ötürən bir mərkəzdir.

Akademik Nərgiz Axundova, Milli Kitabxananın direktor müavini Ədibə İsmayılova, tarixçi alimlər Cəbi Bəhramov, Hacı Həsənov, Kamran İsmayılov, Aypara Rüstəmova və başqaları çıxışlarında bildiriblər ki, bu gün Tarix İnstitutunun nəşrləri türk, rus, ingilis, alman, fransız, ispan, italyan, ərəb, gürcü, fars, erməni və başqa dillərdə oxunur. Azərbaycanın tarix elmi İrəvan xanlığına, Qarabağ və Naxçıvan tarixinə həsr olunmuş fundamental əsərlərdə erməni saxtakarlarını ifşa edib. Dövlət başçısı bütün bu uğurlara görə institutun 13 əməkdaşını Azərbaycanın Dövlət mükafatına layiq görüb.

Sonda Milli Kitabxana nəşrlərini Tarix İnstitutuna təqdim edib. Nəşrlər arasında "Azərbaycan kitabı" çoxcildliyi, "İslam", "Multikulturalizm", "Azərbaycanın tarixi abidələri və toponimləri", "Azərbaycan Xalq Cümhuriyyəti", "Azərbaycan xalçaları", "Azərbaycan Milli Kitabxanası" və "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından çoxsaylı fundamental biblioqrafiyalar var.

# Mədəniyyət naziri Əbülfəs Qarayevin Böyük Britaniyada görüşləri davam edir

Mədəniyyət naziri Əbülfəs Qarayev Böyük Britaniyaya səfəri çərçivəsində Koventri Universitetində "Yaradıcı sənayelər: imkanlar və çağırışlar" mövzusunda mühazirə ilə çıxış edib.



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, Əbülfəs Qarayevi universitetin tələbələrinə təqdim edən Koventri Universitetinin Sülh, Etimad və Sosial Münasibətlər Mərkəzinin rəhbəri professor Maykl Hardi əvvəlcə ölkəmizdə həyata keçirilən "Bakı Prosesi" təşəbbüsü, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu və qlobal müxtəlifliyin idarəolunması proseslərində Azərbaycanın rolu barədə tələbələrə məlumat verib.

O qeyd edib ki, hazırda Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən bir sıra istiqamətlərdə uğurlu işlər həyata keçirilir. Bu işlərdən ən mühüm istiqamət ölkədə yaradıcı sənayelərin inkişafı ilə bağlı mövcud məsələlərin həlli və strategiyaların formalaşdırılmasıdır. M.Hardi bildirib ki, Koventri Universitetinin fəxri doktoru və ziyarətçi professoru olan Əbülfəs Qarayev bu sahədə tələbələrlə fikirlərini bölüşmək məqsədilə universiteti ziyarət edib.

Daha sonra Ə.Qarayev Azərbaycan tərəfindən mədəniyyət sahəsində həyata keçirilən çoxsaylı layihələr və bu istiqamətdə yeni bir çağırış olan yaradıcı iqtisadiyyatın formalaşdırılması ilə bağlı tələbələr qarşısında mühazirə ilə çıxış edib. Nazir qeyd edib ki, Azərbaycan bir çox istiqamətlərdə mühüm addımlar atıb, hazırda dünyanın mədəniyyətlərarası dialoq mərkəzinə çevrilib. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu BMT-nin baş katibi tərəfindən dünyada ən vacib qlobal platforma elan edilib. Nazir bildirib ki, son 20 ildə Böyük Britaniyada xüsusilə inkişaf edən mədəniyyət, texnologiya və iqtisadiyyatın uzlaşmasından ibarət yeni sənaye növü olan yaradıcı sənayelər ölkələrin iqtisadiyyatında mühüm rol oynayır. Nazir hazırda dünyada vacib istiqamətlərdən biri olan bu sənayenin ən inkişaf etmiş regionlarının Cənub-Şərqi Asiya, Avropa və Amerika olduğunu bildirərək Azərbaycanda da bu istiqamətdə layihələrin həyata keçirilməsinə başlandığını bildirib. O, "Kreativ Azərbaycan" portalının təsis edildiyini və yaradıcı sənaye sahəsində fəaliyyət göstərən şirkət və fərdlərin bu portal vasitəsilə Mədəniyyət Nazirliyi ilə əlaqə yaratdığını qeyd edib. Bununla yanaşı, Ə.Qarayev yaxın zamanda "Kreativ Azərbaycan Könüllülər Hərəkatı"nın da təsis ediləcəyini və Mədəniyyət Nazirliyi tərəfindən yaradıcı sənayelərin inkişafına dair İnkişaf Proqramının hazırlanması istiqamətində iş aparıldığını vurğulayıb. Qeyd edib ki, bu istiqamətdə Britaniya Şurası (British Council) və Britaniyanın digər aidiyyəti təşkilatları ilə əməkdaşlıq edilir.

Mühazirədən sonra tələbələrin sualları cavablandırılıb.

Həmin gün nazir Əbülfəs Qarayev Böyük Britaniyanın yaradıcı sənayelərin inkişafında xüsusi töhfəsi olan "Yaradıcı İngiltərə" (Creative England) təşkilatının rəhbəri, eyni zamanda, Yaradıcı Sənayelər Federasiyasının rəhbərliyində təmsil olunan Karolin Norburi (Caroline Norbury) ilə görüşüb. "Yaradıcı İngiltərə" hazırda İngiltərədə sənaye sahələri ilə biznes qurmaq istəyən, həmçinin investisiya qoyan və investisiya axtarışında olan insanlar arasında körpü rolunu oynayır. Bu təşkilatın əsas funksiyalarından biri məhz yaradıcı sənayelərin inkişafında dövlətə dəstək olmaqdır. Təşkilat çoxsaylı layihələr həyata keçirir ki, bu layihələr xüsusilə gələcək iqtisadiyyatın ən mühüm istiqamətləri hesab olunur.

"Yaradıcı İngiltərə"nin rəhbəri təşkilat barədə ətraflı məlumat verib və təşkilatın öz təcrübəsini Azərbaycanla bölüşməyə hazır olduğunu bildirib. O, hazırda təşkilat tərəfindən yaradıcı sənaye sahəsinin problemlərinin araşdırıldığını və dövlət qurumları qarşısında qaldırıldığını qeyd edib. K.Norburi dövlət və özəl sektor nümayəndələrinin Yaradıcı Sənayelər Federasiyasında birgə təmsil olunduğunu, "Yaradıcı İngiltərə" təşkilatının da bu federasiyada təmsil olunduğunu və yaradıcı sənayenin problemlərinin bu federasiya vasitəsilə dövlət qarşısında qaldırıldığını qeyd edib.

Nazir Ə.Qarayev bildirib ki, yaradıcı sənayedə mövcud olan problemlərin araşdırılması və biznes strukturları ilə əlaqələrin yaradılmasına dəstək məqsədilə Azərbaycanda Kreativ Biznes Mərkəzinin açılması nəzərdə tutulub. Bununla yanaşı, nazir Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin tərkibində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin yaradılması barədə məlumat verib. Qeyd edib ki, agentliyin yaradılması yaradıcı sənayenin inkişafına öz töhfəsini verəcəkdir.

Sonda "Yaradıcı İngiltərə" və Britaniya Şurasının nümayəndələrinin Azərbaycana səfər etməsi və əməkdaşlığın istiqamətlərini müəyyən edəcək yol xəritəsinin hazırlanması barədə razılıq əldə olunub.

# "Qarabağ: əcdadlarımızın mirası"

Azərbaycan İlahiyyat İnstitutunda (AİI) "Qarabağ: əcdadlarımızın mirası" sənədli filminin təqdimatı keçirilib.

Sənədli ekran əsəri Gənclər və İdman Nazirliyi, AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu və "Virtual Qarabağ" İnformasiya-Kommunikasiya Texnologiyaları Gənclər İctimai Birliyinin birgə təşkilatçılığı ilə ərsəyə gəlib.

AİI rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov Ermənistanın işğal olunmuş Azərbaycan ərazilərində xalqımıza məxsus maddi-mədəni irsi məhv etməsinin yalnız ölkəmizə qarşı yönəlmədiyini, bunun eləcə də ümumbəşəri sivilizasiyaya qarşı törədilən vəhşilik, vandalizm aktı olduğunu, işğal edilmiş Azərbaycan ərazilərində erməni vandalları tərəfindən çox sayda məscid, muzey, maddi-mədəniyyət nümunəsinin yerlə-yeksan olunaraq dağıdıldığını bildirib. C.Məmmədov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın Azərbaycan həqiqətlərinin, Xocalı soyqırımının, bütövlükdə Qarabağ müharibəsi zamanı Azərbaycan xalqının başına gətirilən müsibətlərin dünya ictimaiyyətinə çatdırılmasında ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirdiklərini də vurğulayıb.

Gənclər və İdman Nazirliyinin əməkdaşı Hüseyn Babayev Azərbaycan, ingilis, rus dillərində istehsal edilən "Qarabağ: əcdadlarımızın mirası" sənədli filmi haqqında iştirakçılara məlumat verib. O qeyd edib ki, film vətənimizin ayrılmaz tərkib hissəsi olan doğma Qarabağ torpaqlarının, onun mədəni irsinin ölkəmizə, xalqımıza məxsusluğu, bu gerçək həqiqət haqqında erməni yalanlarının ifşa olunması, əzəli torpaqlarımıza Ermənistanın ərazi iddiaları haqqındadır. Bu məlumatların dünya ictimaiyyətinə obyektiv şəkildə çatdırılması sənədli filmin əsas məqsədini təşkil edir.

Filmdə Qarabağın yerləşdiyi coğrafi ərazi, onun təbiəti, əhalisi, mədəni irsi, Alban və İslam abidələri, burada mövcud olmuş qədim mədəniyyətlər barədə bəhs edilir. Həmçinin Orta əsrlərdə, xanlıq dövründə, XIX əsrdə, XX əsrin əvvəllərində, Azərbaycan Xalq Cümhuriyyəti və sovet hakimiyyəti zamanı Qarabağın vəziyyəti haqqında, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində ölkəmizə dəymiş ziyan, işğaldan azad olunmuş ərazilərdə abadlıq-quruculuq işləri barədə fakta söykənən görüntülü məlumatlar verilir. "Nə üçün Qarabağ bizə bu qədər doğmadır?" sualına filmin sonunda "Çünki Qarabağ sonuncu qaladır, çünki Qarabağ əcdadlarımızın mirasıdır", - deyə cavab verilir.

"Qarabağ: əcdadlarımızın mirası" Azərbaycanda sözügedən bölgənin bütün tarixi dövrlərini və müasir işğal mərhələsini orijinal çəkilişlə, arxiv sənədləri və muzey materialları ilə əks etdirən modern formatda hazırlanmış ilk ümumi filmdir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azərbaycanlı alimlərin dünya elminə mühüm töhfəsi

Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Geologiya və Geofizika İnstitutunun şöbə müdiri, akademik Hətəm Quliyevin və AMEA-nın müxbir üzvü Rəşid Cavanşirin həmmüəllifi olduğu "Yerin ilkin etalon modeli" haqqında məqalə Amerika Geofizika İttifaqının nüfuzlu nəşrlərindən olan "Earth and Space Science" jurnalında işıq üzü görüb.

AMEA-dan AZƏRTAC-a bildirilib ki, məqalədə azərbaycanlı alimlər modelin geomexaniki cəhətdən düzgün olmadığını sübuta yetiriblər. Onlar qeyri-xətti geomexaniki təhlil metodu yaratmaqla Yerin ilkin etalon modelinin formalaşması zamanı yol verilmiş səhvləri müəyyən ediblər. Görülmüş işlər fundamental əhəmiyyət daşımaqla yanaşı, həm də böyük innovativ xüsusiyyətə malikdir. Belə ki, yeni metodun tətbiqi neft-qaz yataqlarının və regionun seysmik aktivliyinin öyrənilməsində yeni mərhələ rolunu oynayacaq.

Qeyd edək ki, Yerin ilkin etalon modeli 1981-ci ildə ABŞ Geofizika İttifaqının prezidenti D.Anderson və məşhur professor A.Dzevonski tərəfindən beynəlxalq elmi ictimaiyyətə təqdim edilib. Alimlər bu araşdırmalarına görə 1989-cu ildə Yer elmləri sahəsində Nobel mükafatına bərabər sayılan Kraudof mükafatına layiq görülüblər. Model bugünə qədər çoxsaylı geoloji və geofiziki problemlərin həllində istifadə olunub.

# "Qış Məktəbi"nin iştirakçıları Şəkinin tarixi məkanlarında

Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı ilə Şəki şəhərində könüllülər üçün təşkil edilən "Qış Məktəbi"nin iştirakçıları proqrama uyğun olaraq, layihənin ikinci günü bu qədim diyarın tarixi məkanları ilə tanış olublar.



AZƏRTAC xəbər verir ki, layihə iştirakçılarının qədim Şəki ilə ilk tanışlığı "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğunun ərazisində yerləşən və inşa tarixi XVIII əsrin sonuna aid edilən "Yuxarı Karvansaray" mehmanxana kompleksindən başlanıb. Gənclərin diqqətinə çatdırılıb ki, Şərq memarlığı üslubunda tikilən bu kompleks 300-dək otaq və zirzəmidən ibarətdir. XVIII-XIX əsrlərdə yaxın və Orta Şərq ölkələrindən gələn tacirlər bu karvansarayda qalır, ticarətlə məşğul olurdular. Hazırda karvansaray mehmanxana kimi fəaliyyət göstərir.

"Qış Məktəbi"nin iştirakçıları qoruğun ərazisində yerləşən və XVIII əsrə aid tarixi abidə - "Şəki xanlarının evi" ilə də tanış olub, şəhərin tarixi hissəsindəki sənətkarlıq emalatxanalarına baş çəkiblər.

Sonra layihə iştirakçıları Kiş kəndinə gələrək burada yerləşən qədim alban məbədini ziyarət ediblər.

Diqqətə çatdırılıb ki, Kiş məbədi ilin bütün fəsillərində Şəkiyə gələn yerli və xarici turistlərin, həmçinin rəsmi qonaqların, beynəlxalq tədbir iştirakçılarının ən çox üz tutduqları, ziyarət etdikləri tarixi məkanlardan biridir. Eramızın birinci əsrində Qafqaz Albaniyasında geniş yayılan Ay məbədinin özülü üzərində qurulan Kiş məbədi bütün Qafqazda təqribən iki min il bundan əvvəl xristianlığın yayıldığını rəmzləşdirən məşhur tarixi abidədir. Əhəng daşından tikilən bu abidə erkən orta əsrlərdə yaranan ilk günbəzli, zal tipli məbəddir. 2001-ci ilin mayında abidədə Azərbaycan-Norveç birgə "Kiş" layihəsi üzrə bərpa işlərinə başlanılıb və 2003-cü ilin sentyabrında məbədin açılışı olub. Layihə məşhur norveçli səyyah, etnoqraf və alim Tur Heyerdalın dəstəyi ilə həyata keçirilib. Alimin xatirəsini əbədiləşdirmək üçün məbədin qarşısında onun büstü də qoyulub.

"Qış Məktəbi"nin iştirakçıları abidənin önündə xatirə şəkilləri çəkdiriblər.

# Xaçmaz KOB İnkişaf Mərkəzində təlimlərə başlanılıb



Xaçmaz KOB İnkişaf Mərkəzində startap layihələrinin yaradıcıları və mikro sahibkarlar üçün "Effektiv işgüzar ünsiyyət bacarıqları" mövzusunda təlim keçirilib.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) AZƏRTAC-a bildirilib ki, təlimdə KOB-lar peşəkar mühitdə ünsiyyət, anlaşılmazlıq və empatiya, əks-əlaqə texnikaları, emosional vəziyyətin idarə olunması, davranış tipləri kimi mövzularda məlumatlandırılıb, onları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, Xaçmaz "KOB Evi"ndə fəaliyyət göstərən KOB İnkişaf Mərkəzində innovativ sahibkarlığa, startaplara və ailə biznesinə dəstək, qadınlar, əlillər və gənclər arasında sahibkarlığın təşviqi, KOB-ların maarifləndirilməsi, təlimlərin, seminarların və təcrübə proqramlarının təşkili üzrə xidmətlər təqdim olunur. KOB İnkişaf Mərkəzi mikro, kiçik və orta sahibkarları və biznesə başlamaq istəyənləri bu xidmətlərdən yararlanmağa dəvət edir.






# Gənclik







● Gələcəyə dəstək

**Tarixin bütün mərhələlərində cəmiyyətin inkişafı onun bilikli, savadlı, intellektual potensiala malik gəncliyinin düşüncəsindən, əməli fəaliyyətindən bəhrələnir, zamanın sınağından uğurla keçərək özünəməxsus iz qoyur. Ölkə gənclərinin müəyyən hissəsi Ermənistanın təcavüzkar siyasətinin qurbanları olan məcburi köçkün ailələrinin yetirmələridir. Təbii ki, onlar da dövlət gənclər siyasətindən bəhrələnərək cəmiyyətdə müəyyən mövqeyə sahib olurlar. Bəs bu kateqoriyaya malik gənclərimiz onlara göstərilən diqqət və qayğıya əməli fəaliyyətləri ilə necə cavab verirlər?**



# Gənclər dövlətin qayğısına öz töhfələri ilə cavab verir

Kəlbəcər rayon Gənclər və İdman İdarəsinin rəisi Musa Məmmədovun fikrincə, Prezident İlham Əliyevin son 15 illik fəaliyyətinin ən böyük uğurlarından biri ölkədə milli ideyanın formalaşmasıdır. Bu gün respublikada həyata keçirilən siyasətin başlıca məqsədi modernləşmə mərhələsini sürətlə başa vuraraq Azərbaycanı hərtərəfli inkişaf etmiş ölkələr səviyyəsinə yüksəltmək, demokratik ideyaların tam möhkəmlənməsinə nail olmaq, yeni düşüncəli vətəndaş yetişdirməkdir.

## Məqsəd yeni düşüncəli vətəndaş yetişdirməkdir



Həmsöhbətimin də qeyd etdiyi kimi, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasəti ölkə rəhbəri İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirilir. Həmin siyasət həm də Azərbaycan gəncliyinin inkişafına mühüm təkan verir.

Musa Məmmədov bildirdi ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2005-ci il avqustun 30-da "Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında" imzaladığı sərəncam mühüm sənədlərdən biridir. Həmin proqram çərçivəsində görülən işlər gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun təmin edilməsi, dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi yönündə ciddi irəliləyişə gətirib çıxarıb: "Bu sərəncamdan irəli gələn vəzifələrin yerinə yetirilməsində kəlbəcərli məcburi köçkün gənclər də fəallıqları ilə diqqəti cəlb edirlər. Prezident İlham Əliyevin bu sahəyə olan xüsusi diqqəti özünü 2007-ci ilin "Gənclər ili" elan edilməsində də göstərdi. Belə ki, həmin il dövlət başçısı "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi barədə və 2011-ci ilin 6 aprelində "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı haqqında sərəncamlar imzaladı. Gənclərin hərtərəfli inkişafını, cəmiyyət həyatında fəal iştirakını bir qədər də stimullaşdırmaq məqsədi ilə dövlət başçısı 19 dekabr 2011-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun yaradılması barədə sərəncam verdi. Dövlət başçısının gənclərə dəstək istiqamətində verdiyi mühüm qərarlardan biri də ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsi ilə bağlı imzaladığı sənəddir".

## Silsilə tədbirlər, qazanılan nailiyyətlər

Fəal kəlbəcərli gənclər ötən il Respublika Gənclər Günü münasibəti ilə Bakı Konqres Mərkəzində Azərbaycan Gənclərinin Ümumrespublika Toplantısında iştirak ediblər. 1500 ailəlik yeni qəsəbədə fəaliyyət göstərən Kəlbəcər İncəsənət Məktəbində "Gənclər günü" ilə əlaqədar keçirilən görüşdə fərqlənən 10 nəfər idmançı gəncimizə qiymətli hədiyyələr və fəxri fərmanlar təqdim olunub.

Bu, ilk növbədə uşaq və gənclərin hərbi-vətənpərvərlik tərbiyəsində mühüm məsələdir. Xocalı soyqırımı haqqında uşaq təxəyyülü ilə çəkilmiş rəsmlərə baxış keçirilib.

Novruz bayramı ilə əlaqədar təşkil olunan tədbirlərdə gənc aşıqların, musiqiçilərin, idarə və müəssisələrdə çalışan istedadlı gənclərin, eləcə də idmançıların iştirakı təmin edilib. Tədbirdə 62 nəfər idmançının bir-birindən maraqlı nömrələrlə çıxışları yadda qalıb. "31 Mart - Azərbaycanlıların Soyqırımı Günü"ndə rayonun 11 nömrəli tam orta məktəbində "Tariximizi unutmayaq" mövzusunda yuxarı sinif şagirdləri ilə birlikdə keçirilən tədbirdə erməni vandalizminin törətdiyi soyqırımı haqqında geniş məlumatlar çatdırılıb.

Gənclərdə vətənpərvərlik hissini gücləndirmək məqsədilə Qarabağ müharibəsi veteranları ilə görüşlər təşkil edilir. Hərbi xidmətə yola salınma mərasimlərində döyüş iştirakçıları çağırışçı gənclərlə vətənpərvərlik ruhunda geniş söhbətlər aparır, "Vətən bizi haraylayır" mövzusunda ictimaiyyətin iştirakı ilə geniş anma mərasimi keçirilir.

## 1127 məzun, 556 tələbə, 600 baldan yuxarı göstəricisi olan gənclər

"Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının müddəalarına əsasən narkomaniya və digər psixoaktiv maddələrin mənfi təsiri və sağlam qidalanma mövzusunda Kəlbəcər məktəblərindən 112 şagirdin iştirakı ilə keçirilən görüş də yaddaqalan olub. Ağdam rayonunun Quzanlı qəsəbəsində gənclər arasında keçirilən XI Azərbaycan çempionatının zona mərhələsində Kəlbəcər rayonunun gəncləri də iştirak edib.

Mühüm faktlardan biri də ötən il Bakı şəhərində gənclər arasında keçirilən kompüter oyunları üzrə XIII Azərbaycan milli çempionatının zona mərhələsi idi. 12 rayon komandası arasında keçirilən həmin yarışda kəlbəcərli gənclər II yerə layiq görülüb.

"Azərbaycanda islam dini və milli-mənəvi dəyərlər" mövzusunda təşkil edilən "dəyirmi masa", "Ailə dəyərlərini qoruyaq", "Gənclərin dünyaya inteqrasiyada rolu", "Gənc sahibkarlara dəstək", "Siqaretə yox deyək", 2019-2020-ci tədris ilində ali məktəblərə qəbul olunan kəlbəcərli gənclərlə görüş (xatırladaq ki, ötən il Kəlbəcər rayonu üzrə 1127 məzundan 556-sı tələbə adını qazanıb. Onların 14 nəfəri 600-dən yuxarı bal toplayıb) və s. tədbirlər yaddaqalan olub.

30 oktyabr 2019-cu il tarixdə YAP Kəlbəcər rayon gənclər təşkilatı ilə birgə Cəbrayil rayonunun Cocuq Mərcanlı kəndinə "Qarabağ Azərbaycandır, nida" adlı keçirilən yürüşdə 50-dən artıq fəal kəlbəcərli gənc də iştirak edib.

2019-cu ildə respublika miqyaslı 13 müxtəlif idman tədbirinə 107 kəlbəcərli gənc qatılıb. Bu yarışlarda onların 12-si I, 9-u II, 9 nəfəri isə III yerə çıxaraq diplom və medallarla təltif edilib.

*Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"*

● Tələbə düşüncələri

# Müəllim peşəsi şərəflidir, məsuliyyəti isə böyükdür

## BDU-da yetişən gənc kadrlar ölkənin hərtərəfli inkişafına bundan sonra da öz töhfəsini verəcək

**Tələbəlik həyatı gənclərin keçirdiyi ən yaddaqalan dövr kimi maraqlıdır. Əlbəttə, bu illər özünəməxsusluğu ilə seçilir. Ən əsası isə odur ki, gənclər vətənə, dövlətə, xalqa layiq vətəndaş kimi formalaşır, dünyagörüşünü artırır, ictimai-siyasi həyatın qaynarlığını hiss edir.**
**Artıq 3-cü kurs tələbəsi olduğum Bakı Dövlət Universitetinin auditoriyalarından həyata vəsiqə alan gənclər yəqin ki, belə düşünür. Burada yaradılan hər cür şərait imkan verir ki, biz tələbələr elmin zirvələrinə aparan yolda qətiyyətlə irəliləyək.**



Məqsəd budur ki, bütün sahələr üçün burada yetişən kadrlar sonralar ölkənin hərtərəfli inkişafına öz töhfələrini verə bilsinlər. Bu mənada çoxixtisaslı universitetimizi, onun professor, müəllim kollektivini daim nümunəvi hesab etməkdə biz tələbələr haqlıyıq.

Təcrübə, bilik və gənclərin dinamizmi, novatorluğu, yeniliyə, islahatlara meyilliliyi kimi amillərlə rastlaşırıq. Ölkə rəhbərinin qətiyyətlə bildirdiyi kimi, dövlət ənənəvi dəyərlər üzərində qurulur. Burada həm də əsas böyük-kiçiklik məsələsidir. Prezident İlham Əliyevin ötən il BDU-nun 100 illik yubiley tədbirində bu məsələyə xüsusi diqqət ayırması heç də təsadüfi deyildi: "...Bunu biz qorumalıyıq, gənclər də məni eşitsinlər, daim böyük-kiçik məsələsinə fikir versinlər. İndi bəzi ölkələrdə buna fikir verilmir. Azərbaycanda yaşlı nəsil, gənc nəsil bir yerdə olmalıdır, necə ki, ali məktəblərdə. Baxın, indi Bakı Dövlət Universitetində minlərlə gənc var, müəllim var. Müəllimlər biliklərini bölüşürlər, gənclər öyrənirlər, sabah onların yerini tutacaqlar. Belə inkişaf etməliyik. Əlbəttə, kadr islahatları bundan sonra da aparılmalıdır..."

Azərbaycan Prezidentinin son bir ildə gənclərin potensialından səmərəli istifadə olunması üçün yürütdüyü kadr siyasəti ölkədə birmənalı şəkildə dəstəklənir və alqışlanır. Bu da onu göstərir ki, ölkə rəhbəri gəncliyə inanır və güvənir. Ona görə də bizi, gəncliyi təmsil edən nəslin üzərinə çox böyük məsuliyyət düşür.

Dövlət müstəqilliyinin bərpasından sonra, daha doğrusu, son on beş il ərzində respublikamızda sosial-iqtisadi modernləşməyə əsaslanmaqla yüksək əzmkarlıq və yaradıcılıqla həyata keçirilən inkişaf strategiyası bütün sahələrdə olduğu kimi, təhsildə də öz səmərəli nəticələrini verməkdədir.

*Güldanə MİRZƏZADƏ, Bakı Dövlət Universitetinin III kurs tələbəsi*

● 2020-ci il "Könüllülər ili"dir

# Onlar həvəslə fəaliyyət göstərirlər



**Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Sabunçu rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 12 nömrəli kitabxana filialı şəhid Əvəz Paşayev adına Mədəniyyət evi ilə birgə gənc könüllülərlə görüş təşkil edib. Tədbir Sabunçu rayonunda fəaliyyət göstərən 4 saylı Bakı "Asan xidmət" mərkəzində keçirilib.**

Filialın müdiri Vəsilə Məmmədli bildirib ki, Azərbaycan Prezidentinin 2019-cu il 30 dekabr tarixli sərəncamı ilə 2020-ci il "Könüllülər ili" elan edilib: "Könüllü" sözü XVII əsrdə Avropada meydana gəlib. O, könüllü əsgərlərə şamil olunub. Könüllülük fəaliyyəti ilk dəfə XVII əsrdə Fransa ordusunda başlayıb. Azərbaycanda könüllülük hərəkatının nəzərəçarpacaq yüksəlişi məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, Ulu Öndərin müstəqil Azərbaycana rəhbərliyinin ilk illərindən başlayaraq, ölkənin hərtərəfli və davamlı inkişafı məqsədilə dövlət, özəl sektorlar, vətəndaş cəmiyyəti arasında əməkdaşlıq diqqət mərkəzində saxlanılıb.

Dünyada bu hərəkat get-gedə genişlənir. Hər 10 ildə 10 min könüllü artır. Azərbaycanda isə "Eurovision-2012" mahnı müsabiqəsi, 2015-ci il I Avropa Oyunları, 2017-ci il IV İslam Həmrəyliyi Oyunları, "Formula-1" və digər mötəbər və irimiqyaslı beynəlxalq tədbirlərə on minlərlə könüllü cəlb olunub.

Mədəniyyət evinin müdiri Kərim Kərimov çıxışında qeyd edib ki, ölkə rəhbərliyinin həyata keçirdiyi məqsədyönlü və ardıcıl siyasət nəticəsində gənclər bu gün demokratikləşmə prosesində, mədəniyyət, incəsənət, elm və idman sahələrində inamla irəliləyir, zəngin mədəni irsimizin qorunub saxlanması və inkişaf etdirilməsi yolunda mühüm addımlar atırlar: "Parlaq gələcəyimizin təminatçısı olan gənclər Azərbaycanın sürətli inkişafı naminə bütün güclərini toplamalı, vətənin inkişafı üçün səylə çalışmalıdırlar. Doğma Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasında, işğal edilmiş torpaqlarımızın azadlığı uğrunda mübarizədə onlara qələbələr qazanmağı və gənclik həvəsi ilə bundan sonra da vətənə ləyaqətlə xidmət etməyi arzu edirəm".

Gənc istedad Mirsahil Məmmədli mahnılar ifa edib. Sonda gənc könüllülərə filialdan kitablar hədiyyə olunub.

*M.NƏRİMANOĞLU, "Azərbaycan"*

● Gənclik və idman

# Ötən il idmançılarımız 775 medal qazanıblar






Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə 2019-cu ildə respublikada fəaliyyət göstərən federasiyalarla birlikdə ölkəmizdə 233 respublika, 62 beynəlxalq yarış keçirilib, 243 beynəlxalq yarışda yığma komandalarımızın iştirakı təmin olunub. Millilərimiz 12 gündən az olmayaraq 118 təlim-məşq toplanışında iştirak ediblər. Ötən il idmançılarımız 271-i qızıl, 238-i gümüş və 266-sı bürünc olmaqla, ümumilikdə 775 medal qazanıblar. Olimpiya idman növləri üzrə 90 qızıl, 96 gümüş, 141 bürünc, qeyri-olimpiya idman növləri üzrə isə 181 qızıl, 142 gümüş və 125 bürünc medal əldə olunub.

❖❖❖

Respublikanın şəhər və rayonlarında 45 Olimpiya İdman Kompleksi fəaliyyət göstərir. Tərtər və Yardımlı Olimpiya İdman kompleksləri istifadəyə hazırdır. Goranboy və Neftçala Olimpiya İdman komplekslərinin tikintisi davam etdirilir. Gəncədə isə idman sarayı inşa olunur. Yevlax Olimpiya İdman Kompleksinin layihələndirilməsi başa çatdırılıb. Səkkiz idman zalının tikintisi davam etdirilir.

❖❖❖

Ötən il idmançılarımız böyük uğurlara imza atıb. Qrossmeyster Teymur Rəcəbov Dünya kubokunun qalibi olub. On altı yaşadək şahmatçılardan ibarət komandamız Olimpiadanın qızıl, şahmat üzrə qadınlardan ibarət yığmamız isə Avropa komanda çempionatında ermənilər üzərində inamlı qələbə qazanaraq bürünc medala sahib olublar. Qadın güləşçimiz Mariya Stadnik, taekvandoçumuz Milad Bergi Hərçeqani, triatlonçumuz Rostislav Pevtsov dünya, atlet Nazim Babayev Avropa çempionları adına sahib olublar. Bu il ölkəmiz futbol üzrə Avropa çempionatının qrup mərhələsinin üç oyununa və bir dörddəbir final matçına, "Formula-1" Azərbaycan Qran-prisinə, karate üzrə 55-ci Avropa çempionatına, U-16 Dünya Şahmat Olimpiadasına, bədii gimnastika, idman və batut gimnastikası üzrə dünya kuboku yarışlarına, aerobika və idman gimnastikası üzrə dünya çempionatlarına və digər yarışlara evsahibliyi edəcək.

❖❖❖

İdmançılarımız Minskdə təşkil olunan II Avropa Oyunlarında 28, İtaliyanın Neapol şəhərində XXX Ümumdünya Universiadasında 7, Bakıda keçirilən Avropa Gənclər Olimpiya Festivalında 23 medal qazanıblar. "Tokio 2020"yə velosiped və gimnastika idman növlərində ilk dəfə Azərbaycan idman məktəbinin yetirmələri vəsiqə əldə ediblər. Azərbaycan Gimnastika Federasiyası qarşıya qoyulmuş məqsədə tam nail olaraq maksimum sayda lisenziya qazanıb. Üzgüçülük üzrə yığma komandamızın üzvü ilk dəfə yarışlarda normativləri yerinə yetirməklə özlərinə lisenziyanı təmin edib. Badminton, qılıncoynatma, taekvando, cüdo, ağır atletika, triatlon, kamandan oxatma, boks, karate idman növlərində də lisenziya qazanmaq şanslarımız böyükdür.

*"Azərbaycan"*

● Xəbər

# Gəncədə "XII Liderlik məktəbi" layihəsinin açılışı olub

**Gənclər və İdman Nazirliyi və Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) birgə təşkilatçılığı ilə Gəncədə "XII Liderlik məktəbi" layihəsinin açılışı olub. "Könüllülər ili" çərçivəsində keçirilən "Liderlik məktəbi" layihəsində 120 tələbə 5 komandada iştirak edib.**

Layihənin həyata keçirilməsində məqsəd tələbələrə liderlik, komanda ilə işləmək, vaxtın düzgün idarə olunması və sair bacarıqların öyrədilməsi, gənclərin sosial fəallığının artırılması, ölkəmizi yerli və xarici arenada layiqincə təmsil edəcək liderləri yetişdirməkdir.

